QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 196 (5668) **17 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Uğurlu səfərlər, real nəticələr

*Prezident İlham Əliyevin bölgələrə səfərləri regionların sosial-iqtisadi inkişafına təkan verir*



Səh 2

**Arif Paşayev: "Azərbaycan dünyanın azsaylı kosmik ölkələri sırasına daxil olub"**



3

**Siyavuş Novruzov: "Ölkəmizdə müharibə və əmək veteranlarına daim diqqət və qayğı göstərilir"**



3

**Türkiyənin "Haber Global" kanalında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərə dair süjet yayımlanıb**




5

**Türkiyənin "Yeni gün" qəzeti son 15 ildə Azərbaycanın qazandığı nailiyyətlərdən yazır**




3

**Milli Məclisin növbəti iclası keçirilib**



6

**Əcnəbini 2 dəqiqəyə Azərbaycana gətirən XİDMƏT**



7

10

**17 oktyabr - Yoxsulluqla Mübarizə Günüdür**



11

**"MSK üzvlərinə diplomatik pasportların verilməsi təklifi araşdırılır"**



16

**Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə olunur**



# Uğurlu səfərlər, real nəticələr

## Prezident İlham Əliyevin bölgələrə səfərləri regionların sosial-iqtisadi inkişafına təkan verir



***Bu gün regionlarımızın günbəgün inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir.***

Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Həmçinin, xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

Məhz bunun nəticəsidir ki, son on beş ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Təkcə, onu demək kifayətdir ki, ötən illər ərzində Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımız dəfələrlə artmış və ölkənin ümumi valyuta ehtiyatları çoxalmışdır.

### İctimaiyyətlə bir olan dövlət başçısı

Bu günlərdə regionlara növbəti səfərləri çərçivəsində Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva cənub bölgəsində səfərdə olub və bu bölgələrə səfərləri bir sıra sosial və iqtisadi təyinatlı obyektlərin açılışı ilə əlamətdar olub.

Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva "Azərxalça" ASC-nin Lənkəran filialının açılışında iştirak ediblər. Görüş zamanı Prezident İlham Əliyevə və Birinci Xanım Mehriban Əliyevaya ölkəmizdə xalçaçılığın inkişafı və bu müəssisənin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi diqqət göstərən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində, artıq bir çox bölgələrdə xalça fabrikləri açılıb. "Azərxalça" ASC-nin ilkin olaraq Horadiz şəhərində, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ, Quba, Şəmkir və Tovuz rayonlarında xalça emalatxanalarının tikintisi nəzərdə tutulmuşdu. Artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz və İsmayıllıdakı müəssisələr Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Bu müəssisələri xammalla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiya həcmi 27 milyon 420 min manat olan "Yunəyirici-boyaq" fabrikinin, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin inşası davam etdirilir. Görüş zamanı bildirilib ki, artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Lənkəran, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanılıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça istehsalı emalatxanası tikilir.

Prezident İlham Əliyev görüş zamanı bildirib ki, keçən il də, bu il də Lənkərana gəlmişəm: "Bu, 15 il ərzində mənim Prezident kimi Lənkərana 10-cu səfərimdir. Bundan sonra hələ xeyli açılışlar olacaq, bəlkə bu fabrikin ikincisini də yarada bilərik: "Siz xalçaçılığı yaşadırsınız. Şadam ki, Azərbaycanda belə xalça fabriklərinin tikintisi geniş vüsət alıb. Bu, mənim iştirakımla açılan sayca altıncı xalça fabrikidir. "Azərxalça"nın xətti ilə ölkəmizdə yaxın gələcəkdə 30 fabrik yaradılacaq. Hər fabrikdə 100-dən çox işçi çalışır. Mənə verilən məlumata görə, burada 116 işçi var. Demək olar ki, onların hamısı qadınlardır. Qadınlar üçün iş yerləri, belə gözəl şərait yaradırıq. Belə gözəl binada işləmək də xoşdur, adama zövq verir. Siz bizim qədim sənətimizi yaşadırsınız, burada şagirdlər də var, təlimlər keçirilir. Bu, deməyə əsas verir ki, xalçaçılıq sənəti Azərbaycanda əbədi yaşayacaq".

Prezident İlham Əliyev, həmçinin, vurğulayıb ki, Azərbaycanda xalçaçılığın çox böyük gələcəyi var: "Biz qədim ənənələrimizi qorumaqla xalçaçılığı inkişaf etdiririk. Hazırda Sumqayıt şəhərində əyirici-boyaq fabriki tikilir. Fabrik tikiləndən sonra özümüzü həm boya ilə, həm ipliklə təmin edəcəyik. Bölgələrdə yun qəbulu məntəqələri yaradılır ki, keyfiyyətli xammal tədarük edilsin. Yəni xalçaçılıq Azərbaycanda tam yerli xammal əsasında inkişaf edəcək. Bir daha demək istəyirəm ki, ən önəmlisi, hər fabrikdə qadınlar üçün 100-dən çox, bəzilərində 120, 130, 150 iş yeri, gözəl şərait yaradılır ki, siz burada işləyəsiniz, yaxşı pul qazanasınız və bu sənəti əbədi yaşadasınız".

Dövlət başçısı səfər zamanı Lənkəran Olimpiya İdman Kompleksinin, Hirkan-Daştatük-Biləsər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib. Dövlətimizin başçısına və xanımına Astaraçay üzərində tikiləcək körpü və körpüyə qədər olan yolun planı barədə də məlumat verildi.

Prezident İlham Əliyev sonra Astara rayonuna səfəri zamanı "Astara şəhərinin içməli su təchizatı sistemləri" layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

Dövlət başçısı İlham Əliyev daha sonra Lerik rayonuna səfəri zamanı da Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Göründüyü kimi, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində Azərbaycanda yüksək sürətli və dayanıqlı sosial-iqtisadi inkişafa nail olunub. Çünki sosial-iqtisadi islahatların vacib tərkib hissələrindən biri də yol infrastrukturunun müasirləşdirilməsi, bu sahədə dünyanın mütərəqqi təcrübəsinin tətbiq edilməsidir. Dövlətimizin başçısının Sərəncam və tapşırıqlarına uyğun olaraq, ölkəmizin əsas magistral yolları qısa müddətə və müasir səviyyədə yenidən qurulub. Bundan sonra diqqət kənd və qəsəbələri birləşdirən yolların yenilənməsinə yönəlib. Məhz Lerik rayonunun Noda-Şingədulan-Xanagah avtomobil yolunun açılışı bu deyilənlərin məntiqi nəticəsidir. Beləliklə, sadalanan rəqəmlər, bir daha onu göstərir ki, yürüdülən siyasət dövlət başçımızın düşünülmüş, məqsədyönlü siyasətidir və bu siyasət regionlarımızın yüksək inkişafını təmin edəcək. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində, bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir. Rəqəmlərə diqqət yetirmək kifayətdir.

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev Sumqayıt Dövlət Dram Teatrının əməkdaşlarına "Əməkdar artist" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mingəçevir Dövlət Dram Teatrı əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Xəzər Gəncəliyə "Əməkdar artist" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə Xəzər Novruz oğlu Gəncəliyə "Əməkdar artist" fəxri adı verilsin.

Prezident İlham Əliyev Oktay Sudef oğlu Qurbanovun Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Dövlət başçısının digər Sərəncamı ilə Tarik İsmayıl oğlu Əliyev Azərbaycan Respublikasının Mərakeş Krallığında, Qambiya Respublikasında, Mali Respublikasında, Mavritaniya İslam Respublikasında, Portuqaliya Respublikasında, Seneqal Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılıb.

***

Prezident İlham Əliyev Elşən Vəliyevin Ukraynanın Çerkassı, Kirovoqrad, Poltava və Vinnitsa vilayətlərini əhatə etməklə Poltava şəhərində Azərbaycan Respublikasının fəxri konsulu təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Fəxrəddin İsmayılovun Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Fəxrəddin Nəcəf oğlu İsmayılov Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi təyin edilsin.

***

Dövlət başçısının digər Sərəncamı ilə Emin Yaqub oğlu Eyyubov Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılıb.

***

Prezident İlham Əliyev Qax rayonunun Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qaya Məmmədovun Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Qaya Məmməd oğlu Məmmədov Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilsin.

# Arif Paşayev: "Azərbaycan dünyanın azsaylı kosmik ölkələri sırasına daxil olub"

***Azərbaycan dünyanın azsaylı kosmik ölkələri sırasına daxil olub. Trend-in məlumatına görə, bunu "CanSat Azerbaijan" müsabiqəsinin qaliblərinin mükafatlandırılmasına həsr olunmuş tədbir zamanı Milli Aviasiya Akademiyasının rektoru, Kosmik Məsələlər üzrə Şuranın sədri, akademik Arif Paşayev deyib.***



Qonaqları salamlayan A.Paşayev müsabiqə barədə danışaraq qeyd edib ki, bu müsabiqənin keçirilməsi fikri Təhsil Nazirliyi və "Azərkosmos" ASC-yə aiddir: "CanSat Azerbaijan" müsabiqəsində ölkənin 11 universitetindən 200-ə yaxın tələbə iştirak edib. Onlardan 66 nəfəri müsabiqənin finalçısı olub. Bu müsabiqədə uduzan yoxdur, çünki iştirakçılar həm mühəndis, həm də proqramçı kimi böyük təcrübə qazanıblar. Mən bütün finalçılara yeni qələbələr arzu edirəm".

A.Paşayevin sözlərinə görə, müsabiqənin keçirilməsində münsiflər heyətinin böyük əməyi var. Bu heyətə ABŞ-ın Merilend Universitetinin professoru, kosmik tədqiqatlar sahəsində görkəmli alim, akademik Roald Saqdeyev rəhbərlik edib.

Tədbir zamanı R.Saqdeyev "CanSat Azerbaijan" müsabiqəsinin Azərbaycanın orta tədris müəssisələri arasında da keçirilməsini təklif edib:

"Bir neçə il əvvəl Azərbaycan Milli Aviasiya Akademiyasından olan komandalar "CanSat" müsabiqəsi ilə tanış oldular. Bu müsabiqədə, həmçinin ADA Universitetinin tələbələri iştirak etdilər və qeyd etmək lazımdır ki, Bakıdan olan komandalar layiqincə çıxış etdilər. Bundan sonra "Azərkosmos" ASC-nin təşəbbüsü ilə bu fikir Azərbaycanda reallaşdırıldı".

O xatırladıb ki, 61 il əvvəl ilk peyk buraxılıb və elə o zaman mühəndislər fikirləşib ki, bu prosesi müşahidə etmək üçün geniş kütlə cəlb olunması arzuolunandır: "Bütün dünyada radio həvəskarları bu peykdən siqnallar almağa başladı. Bu ənənə davam edir. Sonra kosmik proqramın inkişafı ilə çoxlu həvəskarlar meydana çıxdı. NASA mütəxəssisləri ABŞ tələbələri üçün xüsusi müsabiqələr keçirmək qərarına gəldi, bir müddət sonra isə digər ölkələrdən tələbələr dəvət edildi. Müsabiqə "CanSat" adını aldı".

R.Saqdeyev əlavə edib ki, müsabiqə böyük populyarlıq qazandı və bir müddət sonra Rusiyada təşkil olundu: "Azərbaycanda "CanSat" müsabiqəsində komandalar mikropeyk dizaynı fikirləşməli və onu maket şəklində hazırlayıb münsiflərə nümayiş etdirməli idi. Birinci mərhələnin yekununda 10 komanda dəvət olundu. Mikropeyklərin buraxılışı sentyabrda keçirildi. Havanın küləkli olmasına baxmayaraq, yarış uğurla keçdi. Bu müsabiqədə uduzan yoxdur. Əminəm ki, bu yaradıcı müsabiqə ənənəyə çevriləcək və iştirakçıların sayı çoxalacaq".

# Siyavuş Novruzov: "Ölkəmizdə müharibə və əmək veteranlarına daim diqqət və qayğı göstərilir"

***"Ölkəmizdə müharibə və əmək veteranlarına daim diqqət və qayğı göstərilir. Azərbaycana gələn qonaqlar da ölkəmizin bu sahədə təcrübəsinin öyrənilməsinin vacibliyini qeyd edirlər. Hərçənd ki, Azərbaycanda müharibə veteranlarının sayı digər ölkələrə nisbətən qat-qat çoxdur".***



Trend-in məlumatına görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.

Deputat bildirib ki, ölkəmizdə 1970-ci ilə qədər veteranların heç bir statusu yox idi: "Lakin 70-ci ildən sonra dövlət tam möhkəmləndikdən sonra veteranlarla bağlı addımlar atılmağa başladı".

S.Novruzov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən cəsarətli addım atılaraq şəhid ailələrinə birdəfəlik müavinət verilməsinin çox mühüm qərar olduğunu qeyd edib.

Bu yaxınlarda Nazirlər Kabineti tərəfindən veteran statusu almayan şəxslər üçün qaydaların tətbiq edildiyini deyən millət vəkili bildirib ki, vaxtilə haqqı olan insanlar kənarda qalıb, olmayanlar isə digərlərinin haqqını mənimsəyiblər: "Hökumət də buna əsasən bu haqdan məhrum edilənlərin öz haqqından istifadəsinə şərait yaradıb".

S.Novruzov əlavə edib ki, ezam olunanlarla həqiqi hərbi xidmətə çağırılanların statusu fərqli olmalıdır.

# Misirli politoloq: "Prezident İlham Əliyevin yürütdüyü ölçülüb-biçilmiş və şəffaf xarici siyasət sayəsində ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmlənib"

***Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyatın bütün sahələrində - siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə böyük uğurlar qazanılıb, ictimai-siyasi sabitlik və təhlükəsizlik təmin edilib.***



Misirli nüfuzlu siyasi şərhçi, "MENA" Dövlət İnformasiya Agentliyinin baş redaktorunun müavini Xaled Qobeyşi bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Onun sözlərinə görə, bu dövrdə iqtisadi sahədə ardıcıl islahatlar aparılıb, həm energetikada, həm də qeyri-neft sektorunda sanballı uğurlar qazanılıb. "Azərbaycanda iqtisadiyyatın daimi və sürətli artımı müşahidə olunur və bu artım təsadüf deyil, Prezident İlham Əliyevin israrlı səylərinin nəticəsidir. Prezident İlham Əliyev ölkənin iqtisadi potensialının möhkəmlənməsinə həmişə böyük diqqət yetirir, hər bir vətəndaşın və bütövlükdə ölkənin həyat səviyyəsini yüksəltmək üçün genişmiqyaslı planlar və layihələr həyata keçirir. Bu gün Azərbaycan güclü və sabit iqtisadiyyatı olan dövlət kimi tanınıb", - deyən X.Qobeyşi vurğulayıb ki, İlham Əliyev öz ölkəsini addım-addım bu cür inanılmaz yüksəlişə və tərəqqiyə doğru aparan, dəqiq strateji təsəvvürə malik olan uzaqgörən siyasətçidir.

Xaled Qobeyşi xüsusi vurğulayıb ki, Prezident İlham Əliyev öz xalqına verdiyi vədləri yerinə yetirən siyasətçidir. O deyib: "Azərbaycan dövlətinin başçısı bu vəzifədə fəaliyyəti dövründə ölkədə demokratiya prinsiplərini möhkəmlədib, vətəndaşların hüquq və azadlıqlarını təmin edib. Bunu demək kifayətdir ki, hazırda Azərbaycanda 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı, 4 mindən çox qeyri-kommersiya təşkilatı, 2 mindən çox KİV, habelə öz sıralarında təqribən 2 milyon nəfəri birləşdirən həmkarlar ittifaqları fəaliyyət göstərir".

AZƏRTAC-ın müsahibi belə bir fakta diqqəti cəlb edib ki, Azərbaycanda sonuncu prezident seçkilərinin yekunları, ölkə vətəndaşlarının seçkilərdə iştirak faizinin yüksək olması və fəal səsvermə demokratiyanın təntənəsinin, xalqın öz liderinə və onun yürütdüyü siyasi və sosial-iqtisadi kursa yüksək etimadının əyani göstəricisidir. Misirli politoloq bildirib ki, bu illər ərzində Azərbaycanda tolerantlıq, multikulturalizm, dinlərarası və mədəniyyətlərarası dialoq ənənələri də möhkəmlənib. X.Qobeyşi deyib: "Azərbaycan müdrik siyasətçi İlham Əliyevin rəhbərliyi ilə regionda və dünyada dinlərarası və sivilizasiyalararası dialoqun əsas mərkəzlərindən birinə çevrilib".

Azərbaycanın xarici siyasət kursu mövzusuna da toxunan politoloq vurğulayıb ki, İlham Əliyev öz prezidentliyi dövrünün lap əvvəlindən ardıcıl, ölçülüb-biçilmiş və şəffaf xarici siyasət yürüdüb, bunun sayəsində ölkənin beynəlxalq aləmdə nüfuzu möhkəmlənib, Azərbaycanın dostlarının sayı artıb. Ölkə aparıcı beynəlxalq təşkilatların tamhüquqlu üzvünə çevrilib, etimad qazanmış və hərəkətləri proqnozlaşdırıla bilən tərəfdaş olub. Bunu xatırlatmaq kifayətdir ki, Azərbaycan böyük səs çoxluğu ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Bu, Azərbaycan tarixində əlamətdar hadisə sayılır. Bu gün Azərbaycan beynəlxalq aləmdə layiqli tərəfdaş imici qazanıb və bu, heç şübhəsiz, Prezident İlham Əliyevin adı ilə bağlıdır. Xaled Qobeyşi əmin olduğunu bildirib ki, Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli tapılacaq.

# Türkiyənin "Yeni gün" qəzeti son 15 ildə Azərbaycanın qazandığı nailiyyətlərdən yazır

Türkiyənin çoxtirajlı "Yeni gün" qəzetində "Azərbaycan dünəndən bu günə qazandığı uğurlarla yaşayır" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalə Prezident İlham Əliyevin dövlət başçısı kimi 15 illik fəaliyyəti və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə hazırlanıb. Qəzet mövzu ilə bağlı Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin fikirlərini türkdilli oxuculara çatdırıb.




Akkan Suver qeyd edib ki, ulu öndər Heydər Əliyevin siyasətini davam etdirən Prezident İlham Əliyev Azərbaycanın çoxistiqamətli strateji inkişafına nail olub. Professor Azərbaycanın müstəqilliyinin qorunub möhkəmlənməsində Prezident İlham Əliyevin böyük xidmətlərini oxuculara çatdırıb. Vurğulayıb ki, yürüdülən siyasət böyük nəticələr verib. Azərbaycan qısa zamanda turizm ölkəsinə çevrilib.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə 15 ildə Azərbaycanın əldə etdiyi böyük uğurlardan bəhs edən Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri ötən dövrdə ölkənin beynəlxalq aləmdəki mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini vurğulayıb. O, Azərbaycanın möhtəşəm beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini, nəhəng beynəlxalq iqtisadi layihələr həyata keçirdiyini diqqətə çatdırıb. Professor fikirlərini belə tamamlayır: "...Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü, İlham Əliyevin prezidentliyinin 15-ci ildönümü, qazanılan nailiyyətlər türk dünyasının qəlbini qürurlandırır. Bütün bunlar mükəmməl bir gələcəyin təminatıdır".

# Mənəvi dəyərlərin təbliğində fərdi ictimai amillər mövzusunda regional seminar keçirilib

Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə Bakı şəhərində "Mənəvi dəyərlərin təbliğində fərdi-ictimai amillər" mövzusunda regional seminar keçirilib. AZƏRTAC xəbər verir ki, seminarda Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, icraçı direktorun müavini Ceyhun Əliyev, Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini, fəlsəfə elmləri doktoru, professor Qızılgül Abbasova, Azərbaycan Milli Elmlər Akademiyasının böyük elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Şəhla Musayeva, Xəzər Universitetinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.



Seminarda çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov mənəvi dəyərlərin cəmiyyətdə və fərdlər arasında təbliğinin vacibliyi haqqında danışıb. M.İsmayılov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müasir Azərbaycanın möhkəm mənəvi təməllər üzərində qurulduğunu, bu təməllərin gənclər tərəfindən mənimsənilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edib. İcraçı direktor Fondun fəaliyyəti haqqında da geniş məlumat verib. "Mənəviyyat nədir?" mövzulu məruzə ilə çıxış edən Xəzər Universitetinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub mənəviyyat haqqında qədim filosof və mütəfəkkirlərin fikirləri və mənəviyyata verdiyi təriflər haqqında iştirakçıları məlumatlandırıb.

Seminarda Bakı Dövlət Universitetinin sosial elmlər və psixologiya fakültəsinin dekan müavini, fəlsəfə elmləri doktoru, professor Qızılgül Abbasovanın "Gənclər mühitində mənəvi dəyərlər" mövzusunda məruzəsi dinlənilib. Məruzədə gənclərə mənəvi dəyərlərin təbliği işinin metodları və praktiki təcrübəsi haqqında fikirlər, eləcə də gənclərə bununla bağlı tövsiyələr diqqətə çatdırılıb.

# İlham Əliyev: Möhtəşəm və dayanıqlı inkişaf



*Siyavuş Novruzov, Yeni Azərbaycan Partiyası İcra Katibinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri*

***Azərbaycanın yeni tarixində mühüm hadisələrdən biri Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi, görkəmli dövlət xadimi cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsidir. Həmin vaxtdan 15 il keçir və Prezident İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir.***

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni dinamika gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Çünki, onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir.

Təsadüfi deyil ki, ötən dövr ərzində məhz dövlət başçımızın düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkə iqtisadiyyatı sürətli və dinamik inkişaf dövrünə qədəm qoydu. Yaxşı xatırlayırıq ki, İlham Əliyev ilk dəfə prezident seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. Onda bu rəqəm bəzilərinə xəyal kimi görünürdü. İllər keçdi xəyal hesab edilənlər reallığa çevrildi. Ötən 15 ildə Azərbaycanda 1 milyon 900 mindən çox yeni iş yeri yaradıldı. Bu və digər addımların nəticəsi olaraq yoxsulluq 50 faizdən 5 faizə düşdü. Dünyada ən sürətli templərlə inkişaf edən Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artdı. Ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyuldu. Kosmik ölkəyə çevrilən Azərbaycan 2018-ci ildə artıq üçüncü süni peykini orbitə buraxdı.

Ötən müddətdə aqrar-sənaye kompleksində islahatlar genişləndi, ölkədə güclü sahibkarlar sinfi formalaşdı. Bu gün ölkə iqtisadiyyatının diversifikasiyası uğurla davam edir. Dövlət xətti ilə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsinə milyonlarla manat güzəştli kreditlər ayrılır. Aqrar sektor geniş inkişaf yoluna çıxıb və Azərbaycan indi özünün ərzaq təhlükəsizliyini təmin edən nadir ölkələrdən biridir.

Cənab İlham Əliyevin islahatlarının əsas hərəkətverici qüvvəsi şəffaflıq prinsipinə sədaqətdir. "Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz", - deyən Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlarla dövlət strukturları arasında bürokratik maneələrin aradan qaldırılması üçün aparılan islahatlar çərçivəsində innovativ addım atdı - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini (ASAN xidmət) yaratdı.

Prezidentin təşəbbüsü ilə "ASAN xidmət" mərkəzləri yaradıldı, bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsi təmin olundu. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət" dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir. Habelə, hazırda vətəndaşların xırda sahibkarlıq təşəbbüslərini dəstəkləyən ABAD xidməti də bir sıra bölgələrimizdə uğurla fəaliyyət göstərməkdədir.

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. Bunu sübut edən ən böyük amillərdən biri Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi oldu. Müstəqillik tariximizin ən böyük nailiyyəti olan bu hadisə Azərbaycanda yürüdülən siyasətə və beynəlxalq birliyin Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin, Azərbaycana olan inam və etimadın təzahürüdür. Ölkəmiz nəticə etibarilə bütün regional məsələlərdə əsas oyunçuya çevrilib.

Məhz dövlət başçımızın müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu problemə yönəldi, Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və pisləməyə başladı.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan öz təşəbbüsləri və layihələri ilə Avropanın enerji xəritəsini dəyişdi. Prezident İlham Əliyevin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycan bu sahədə əsas oyunçulardan birinə çevrilib. Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri və reallaşan layihələr regional çərçivələrdən çıxaraq qlobal miqyas alıb. Bir qədər geri qayıdıb tarixə nəzər salmaq lazım gəlir. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi başa çatdırıldı. Bununla da "Əsrin müqaviləsi"ndən sonra Azərbaycana külli miqdarda investisiya axını başladı.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rola malikdir: Azərbaycanla Türkiyə arasında dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin icrasına başlanıldı. Dörd il əvvəl Azərbaycanın yeni tarixinə və enerji siyasətinə qızıl hərflərlə yazılan başqa bir möhtəşəm hadisə baş verdi - XXI əsrin qlobal enerji layihəsi adlandırılan "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu. Bu il "Əsrin müqaviləsi" daha 50 il müddətinə uzadıldı.

Azərbaycanın təşəbbüsü ilə daha bir qlobal layihə reallaşdı - Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. İndi Asiya və Avropanı birləşdirən bu nəqliyyat dəhlizi sadəcə ölkəmiz üçün deyil, regionun və bütövlükdə Avrasiya geosiyasi və geoiqtisadi məkanında hərtərəfli əlaqələrin inkişafı baxımından geniş perspektivlər vəd edir.

Bu gün qürur hissi ilə deyə bilərik ki, cənab İlham Əliyevin hərtərəfli inkişaf strategiyası regionların simasını tanınmaz dərəcədə dəyişdirib. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırdı. Bu gün Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunub və Avropanın şəhər və kəndlərindən heç də geri qalmır. Vaxtilə bölgələrimizdə olan bir çox problemlər öz həllini tapdı. Prezidentin tapşırığına əsasən Azərbaycan başdan-başa qazlaşdırılır. Artıq ölkə əhalisinin təxminən 95 faizə yaxını təbii qazdan istifadə edir. Kəndlərə içməli su xətləri çəkilir, yeni yollar salınır və ya əsaslı təmir olunur. Dövlətimizin başçısının regionlara səfərləri, ictimaiyyətlə görüşləri ənənəvi xarakter alıb. İlham Əliyev yerlərdə inşa olunan müasir ictimai-sosial obyektlərin, istehsal müəssisələrinin açılışında şəxsən iştirak edir.

Prezidentin çox böyük rəğbətlə qarşılanan təşəbbüslərindən biri də mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin bölgələrdə keçirdikləri qəbullardır. Nazirlər, komitə sədrləri və digər dövlət strukturlarının rəhbərləri yerlərdə əhali ilə görüşür, sakinlərin müraciət və təkliflərini dinləyirlər.

Müharibə şəraitində yaşayan, torpaqları işğal altında olan ölkə üçün ordu quruculuğu həyati əhəmiyyətə malik məsələlərdən biridir. Bunu nəzərə alan Prezident, Ali Baş Komandan İlham Əliyev hakimiyyətinin ilk illərindən müasir silahlarla təchiz olunan, yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparır. Bu gün Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb və bu ordu işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir.

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, habelə, daha sonrakı mərhələdə Naxçıvanın Günnüt kəndi ətrafındakı yüksəklikləri və ümumilikdə minlərlə hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlı təhlükəsizliyinin təmin edilməsi oldu. Prezidentin Sərəncamına əsasən Cocuq Mərcanlıda qısa müddətdə yeni qəsəbə salındı və ilk mərhələdə oraya 60 ailə köçürüldü. Bu hadisə "Böyük qayıdış"ın başlanğıcı kimi qiymətləndirilir.

Daha bir sevindirici fakt ondan ibarətdir ki, ölkəmiz vaxtilə bütün silahları xaricdən alırdısa, indi Azərbaycan özü müasir silah və texnika istehsal edir. Belə ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu istiqamətdə atılmış ən önəmli addımlardan biri kimi dəyərləndirilməlidir.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir təhsil və səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılır. Son 15 ildə ölkədə minlərlə məktəb binası tikilib və ya yenidən qurulub, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edilib. Ölkədə səhiyyə islahatları da uğurla reallaşır. Bu gün təkcə paytaxtda deyil, bölgələrdə də müasir və ən qabaqcıl tibb avadanlığı ilə təchiz olunmuş müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikilib, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən qurulub, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazanıb.

Vaxtilə Ulu öndər Heydər Əliyev deyirdi ki, heç bir fəaliyyət ölkəni dünyada idman qədər tanıda bilməz. Bu ideyanı rəhbər tutan Prezident İlham Əliyev ötən müddətdə Azərbaycanı idman ölkəsinə çevirdi. Bu məqsədə çatmaq üçün bütün ölkə ərazisində Olimpiya mərkəzləri, müasir idman infrastrukturu yaradıldı, idmançılara diqqət və qayğı artırıldı. Azərbaycanda Olimpiya hərəkatı görünməmiş vüsət aldı və ilk Avropa Oyunlarının keçirilməsi Azərbaycana həvalə olundu. Azərbaycan 42-ci Dünya Şahmat Olimpiadasına, qadınlar arasında voleybol üzrə Avropa çempionatına, IV İslam Həmrəyliyi Oyunlarına, cüdo üzrə dünya çempionatına və s. ev sahibliyi etdi. Bakıda üç ildir keçirilən dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Avropa Qran-Prisi ilə Azərbaycan bütün dünyanın diqqət mərkəzində oldu. Azərbaycan Rio Yay Olimpiya Oyunlarında böyük zəfərə imza atdı. Tarixdə ilk dəfə hesabına 18 medal yazan milli komandamız medal sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, MDB respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yeri tutdu.

Prezident İlham Əliyevin milli mənəvi dəyərlərimizə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas mərkəzlərindən birinə çevirdi.

Bu gün multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu, artıq bütün dünyada qəbul edilir. Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl nümunədir və BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi bunu təsdiqləyir.

Prezident İlham Əliyevin mədəniyyət konsepsiyası Heydər Əliyev Fondunun layihələri ilə daha da dolğunlaşıb, ölkəmizin dünyada təbliğinə geniş imkanlar açıb. Bu siyasətin həyata keçirilməsinə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva dəyərli töhfələr verir. Fondun həyata keçirdiyi layihələr sayəsində indi Azərbaycanı dünyada daha yaxşı tanıyırlar. Azərbaycan mədəniyyətinin sorağı hazırda böyük səhnələrdən gəlir. Musiqimizin təməl daşı olan muğam artıq dünya musiqisinə çevrilib. "Eurovision" kimi beynəlxalq mahnı müsabiqəsinə uğurla ev sahibliyi edən Azərbaycan müsabiqə tarixinə öz töhvəsini verdi.

Öz siyasətində daim yüksək humanizm prinsiplərini rəhbər tutan cənab İlham Əliyevin daxili siyasətində əfv və amnistiya fərmanları xüsusi yer tutur. Məhz bu fərmanlar sayəsində minlərlə məhkum öz azadlığına qovuşmuş və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılmışdır. Yeri gəlmişkən belə humanist təşəbbüslər bir çox hallarda Mehriban xanım Əliyeva tərəfindən irəli sürülmüşdür.

Yuxarıda sadalanan uğurlar bir daha təsdiq edir ki, cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı qarşıda daha parlaq gələcək gözləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşdı. Bu, ölkəmizin gələcək inkişafının qarantı sayıla bilən modern Azərbaycan dövlətinin tərəqqi modelidir. Günümüzün bu reallığı beynəlxalq siyasətçilər, ekspertlər tərəfindən də təsdiqlənir və bir daha aydın olur ki, Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur və xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır.

# On beş ilin salnaməsi faktlar və rəqəmlərlə




***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçi-si-şöbə müdiri, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" adlı məqaləsi geniş maraq doğurub. AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədovun bu məqalə ilə bağlı şərhlərini təqdim edir.***

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənovun Prezident İlham Əliyevin dövlətimizin başçısı kimi 15 illik fəaliyyətinə dair "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" başlığı altında geniş oxucu kütləsi ilə bölüşdüyü düşüncələr müasir Azərbaycanın müvafiq dövr tarixinə bir daha nəzər salmaq, görülmüş işləri məntiqi təhlil etmək və ölkəmizin qazandığı nailiyyətlərlə bir daha yaxından tanış olmaq imkanı yaradır.

Seçkiqabağı təşviqat dövründə İlham Əliyevin səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" ifadəsinin sözdə deyil, əməldə parlaq və aydın təzahürü, həqiqətən də yüksək idarəçilik məharəti, siyasi qətiyyəti, milli dövlətçilik təfəkkürü və xalqa inamı ilə fərqlənən ölkə rəhbərinə qısa müddətdə həm böyük hörmət və etimad, həm də sevgi qazandırdı.

Məqalədə ölkədə ictimai-siyasi sabitliyin qorunması və möhkəmlənməsində, vətəndaşların təhlükəsizliyinin, hüquq və azadlıqlarının təmin edilməsində, əhalinin sosial rifahının yüksəlməsində dövlətimizin başçısının misilsiz xidmətlərindən danışılır, böyük qətiyyətlə həyata keçirdiyi daxili və xarici siyasət, səmərəli dövlət idarəçiliyi sayəsində qazanılmış regional və beynəlxalq nüfuzundan, geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərindən bəhs olunur.

Oxucunun məqalə müəllifinin ölkə həyatının son 15 ildə ayrı-ayrı sahələr üzrə təhlili nəticəsində əldə etdiyi məlumatlar tezis şəklində bu cür ifadə oluna bilər:

2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə:

- ölkədə siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilib;

- planlı sosialist iqtisadiyyatından bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilib, ölkə iqtisadiyyatı 3,2 dəfə, sənaye istehsalı 2,6 dəfə yüksəlib;

- qeyri-neft sənayesi inkişaf etdirilib, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlayıb, qeyri-neft sektoru 2,8 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb;

- aqrar sektorda həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar bu sahənin davamlı inkişafına zəmin yaradıb, kənd təsərrüfatında 1,7 dəfə artım qeydə alınıb;

- ölkədə nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 1767 kilometr uzunluğunda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və 980 kilometr uzunluğunda Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib, uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan Cənub Qaz Dəhlizinin təməli qoyulub;

- ölkənin valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılıb, 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub;

- Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib;

- "Azerspace-1", "Azersky" və "Azerspace-2" peyklərini orbitə çıxaran Azərbaycan dünyanın kosmik ölkələri sırasına qoşulub;

- ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənib, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud əsaslı təmir edilib, 15 min kilometr yol çəkilib, 443 körpü inşa olunub, Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlayıb, 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilib;

- ərazisində 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş Azərbaycan regionda elektrik enerjisi ixracatçısına çevrilib, ölkə üzrə təbii qaz təchizatı 51 faizdən 95 faizə yüksəlib;

- əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilib, ölkədə 1,9 milyon yeni iş yeri açılıb, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırılıb, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilib;

- ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparılıb, "ASAN xidmət" modeli Azərbaycanın brendinə çevrilib;

- şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilib, məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülüb, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılıb;

- Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülüb, Azərbaycanın Silahlı Qüvvələri dünyada ən güclü 50 ordu sırasında yer alıb;

- ölkənin beynəlxalq nüfuzu yüksəlib, 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilib;

- milli-mənəvi dəyərlərin, dini etiqad azadlığının, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişafı təmin edilib, 220-dən çox məscid, kilsə, sinaqoq tikilib və ya bərpa olunub, Azərbaycan sivilizasiyalararası dialoq, tolerantlıq və humanitar əməkdaşlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edib;

- gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq edilib;

- ölkənin idman həyatında böyük uğurlar əldə edilib, paytaxt və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda stadion və idman meydançaları istifadəyə verilib, Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına və IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edib, 2016-cı ildən etibarən hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışlarını təşkil edir;

- Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında keçid dövrünü başa vuran ilk ölkə olub, iqtisadi rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşıb.

Məqalədə qeyd edildiyi kimi, Azərbaycanın əldə etdiyi uğurların əsasında "məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır". Prezident İlham Əliyevin müdrik dövlət siyasəti və xalqla qarşılıqlı inamı Azərbaycanın parlaq gələcəyini təmin edən başlıca amildir.




## Türkiyənin "Haber Global" kanalında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərə dair süjet yayımlanıb

***Türkiyənin "Haber Global" telekanalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə rəhbəri vəzifəsində 15 illik fəaliyyəti dövründə əldə olunan nailiyyətlərə həsr edilən geniş süjet yayımlanıb.***

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev ilə 15 il" adlı yeddi dəqiqəlik süjetdə dövlət başçısının hakimiyyətdə olduğu dövrdə mühüm uğurların qazanıldığı qeyd edilib. Həmçinin İlham Əliyevin 2003-cü ildə səsvermə günü verdiyi müsahibədə dediyi "Bu seçkilərin Azərbaycanın inkişafı, Azərbaycan xalqının rifahının artması və Azərbaycan dövlətinin güclənməsi yolunda mühüm addım olacağına inanıram" sözləri diqqətə çatdırılıb.

Süjetdə müstəqilliyin əvvəllərində Azərbaycanın bütün sahələrdə dərin böhran içində olduğu qeyd edilib, yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkənin dinamik inkişaf yoluna qədəm qoyduğu diqqətə çatdırılıb. Ümummilli lider Heydər Əliyevin siyasətinin onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində on illər ərzində əldə ediləbiləcək nailiyyətlərin qısa müddətdə qazanıldığı xüsusi vurğulanıb. Bildirilib ki, postsovet ölkələri arasında bazar iqtisadiyyatına sürətlə keçid edən ilk respublika olan Azərbaycan regionun güclü ölkəsinə, dünyada söz və nüfuz sahibinə çevrilib.

Süjetdə Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətlərdən geniş söhbət açılıb. Qeyd edilib ki, son 15 ildə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. Ölkənin valyuta ehtiyatları 2003-cü ildəki 1,8 milyard dollardan 46 milyard dollara qədər artıb. Bu illərdə ölkə iqtisadiyyatına 250 milyard dollardan çox investisiya yatırılıb.

Diqqətə çatdırılıb ki, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması Azərbaycanı enerji sahəsində önəmli ölkəyə çevirib. Prezident İlham Əliyevin liderliyi ilə nəhəng enerji və nəqliyyat layihələri reallaşdırılıb. Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri istifadəyə verilib. Dəyəri 40 milyard dollardan çox olan "Cənub Qaz Dəhlizi" layihəsinin tikintisi başa çatmaq üzrədir. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi sayəsində dünyanın ən nüfuzlu enerji şirkətləri ilə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılıb.

Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycanın nəqliyyat sahəsində əldə etdiyi nailiyyətlər arasında ötən il oktyabrın 30-da istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu marşrutunun əhəmiyyəti süjetdə xüsusi vurğulanaraq, bunun beynəlxalq yükdaşımalarda önəmi diqqətə çatdırılıb.

Qeyd edilib ki, İlham Əliyevin prezidentliyi dövründə inkişaf etdirilən ən mühüm sahələrdən biri də yüksək texnologiyalar sahəsidir. Ölkədə 2010-cu ildə "Azərkosmos" ASC qurulub. Bundan sonra - 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azerspace-1", 2014-cü ildə "Azersky", keçən ay isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb.

Süjetdə Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan Silahlı Qüvvələrinin dünyanın 50 ən güclü ordusu sırasına daxil olduğu qeyd edilib. Azərbaycan Ordusunun 2016-cı ilin aprelində və 2018-ci ilin mayında Ermənistanın növbəti təxribatlarının qarşısını qətiyyətlə alaraq, torpaqlarımızın bir hissəsini işğaldan azad etdiyi qeyd olunub.

Bildirilib ki, hərbi sahədəki uğurlar diplomatiya sahəsində də davam etdirilib və Azərbaycan Ermənistanı dünyada işğalçı ölkə kimi tanıtmağa nail olub. Nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanın işğal etdiyi torpaqları boşaltması üçün qərar və qətnamələr qəbul ediblər. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyini alaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib.

Süjetdə qeyd edilib ki, dünyada sabitlik və əmin-amanlıq diyarı kimi tanınan Azərbaycan son illərdə bir sıra mötəbər tədbirlərə və idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi, dünyada ilk dəfə keçirilən I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları Bakıda yüksək səviyyədə təşkil olunub. 2016-cı ildən etibarən Bakıda hər il Formula 1 yarışları keçirilir. 2020-ci ildə isə Azərbaycan futbol üzrə Avropa çempionatının bir neçə oyununa ev sahibliyi edəcək.

Süjetdə ulu öndər Heydər Əliyevin prezidentliyi dövründə əsası qoyulan Azərbaycan-Türkiyə qardaşlığının Prezident İlham Əliyevin hakimiyyəti illərində daha da inkişaf etdiyi, ölkələrimizin birlikdə nəhəng layihələr həyata keçirdikləri bildirilib. Belə layihələrdən birinin - SOCAR-ın İzmirdə inşa etdiyi STAR neft emalı zavodunun yaxın günlərdə istifadəyə veriləcəyi qeyd olunub.

Reportajda Azərbaycanın inkişafında Prezident İlham Əliyev ilə yanaşı, Birinci vitse-prezident Mehriban Əliyevanın da mühüm rolu olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezidentin qızları Leyla və Arzu mədəniyyət və təhsil sahələrində bir çox layihələrin təşəbbüskarlarıdır. Prezident İlham Əliyevin oğlu, babasının adını daşıyan Heydər hazırda həqiqi hərbi xidmətdədir.

# Milli Məclisin növbəti iclası keçirilib

*Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib.*

Əvvəlcə Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda şərh edən Ziyad Səmədzadə deyib ki, qanun layihəsi Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının təklifləri əsasında Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə "Banklar haqqında" Qanunu arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə hazırlanıb.

İkinci oxunuşda "Banklar haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsini təqdim edən Ziyad Səmədzadə bildirib ki, sənədin 57-8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır və fəaliyyət göstərir. Bundan əlavə, cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa hüquqi şəxsə və ya fərdi sahibkara (idarəçiyə) verilə bilməz. Qanuna, həmçinin "bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək" məzmunlu 25.1.5-1-ci maddə əlavə ediləcək.

Dəyişikliyə əsasən, bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən, habelə bankın digər idarəetmə orqanlarının üzvü olan şəxslər bankın Audit Komitəsinin üzvü ola bilməz və səhmdarların Müşahidə Şurasının qərarı ilə Audit Komitəsinin üzvləri vəzifəsindən azad edilməlidirlər. Bundan başqa, Qanuna bir sıra texniki dəyişikliklər də ediləcək.

Ziyad Səmədzadə Mülki Məcəllədə dəyişikliklər edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda şərh edərək bildirib ki, Məcəlləyə "Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli Fərmanının 9.2-ci bəndinin icrası, habelə bu sahədə məmur-vətəndaş təmasının minimum səviyyəyə çatdırılması, şəffaflığın artırılması, sağlam və təhlükəsiz elektron informasiya mübadiləsinin təmin edilməsi məqsədilə bir sıra dəyişikliklər edilir.

Ziyad Səmədzadə "İpoteka haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsini ikinci oxunuşda şərh edib. Qeyd edilib ki, qanun layihəsi daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının qeydiyyatının və dövriyyəsinin elektron qaydada təşkili ilə bağlı müddəaların hüquqi əsasının formalaşdırılmasını, həmçinin ipoteka kağızının tərtib olunmasını, ipoteka qoyan tərəfindən imzalanmasını, onun notarial qaydada təsdiqlənməsini və digər prosedurların elektron qaydada həyata keçirilməsini nəzərdə tutur.

"Lotereyalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi şərh edərkən Ziyad Səmədzadə bildirib ki, qanun layihəsi elektron lotereyaların təşkili və keçirilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur. Bu lotereyaların "Fərdi məlumatlar haqqında" Qanuna əsasən dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsi məqsədəuyğun sayır. Dəyişikliklərə görə, stimullaşdırıcı lotereyada iştirak etmək üçün lotereya obyektinin qiymətindən əlavə haqqın alınmasına yol verilmir. Stimullaşdırıcı lotereyalar yalnız tirajlı formada keçirilir. Bu qanun layihəsi də Milli Məclisin deputatları tərəfindən ikinci oxunuş üçün razılıqla qarşılanıb.



Əli Hüseynli Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda şərh edib. Bildirib ki, məcəlləyə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsinə uyğun olaraq şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktının;" məzmunlu 307.2.10-1.-ci maddə əlavə edilir. Bildirilib ki, təqdim edilmiş layihə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli Qanununun icrası ilə əlaqədardır.

Sənəd səsvermə yolu ilə təsdiqlənib. Əli Hüseynli ikinci oxunuşda nəzərdən keçirilən Cinayət Məcəlləsində təklif olunan dəyişiklikləri də şərh edib.

Dəyişikliklərə əsasən, dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların, faydalı qazıntıların çıxarılması ilə əlaqəsi olmayan layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və ya istismarı zamanı yerin təkinin qorunması və istifadə edilməsi qaydalarının pozulması, habelə faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti aparılması əhəmiyyətli zərərə səbəb olduqda altı min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrumetmə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu sənəd də səsə qoyularaq təsdiqlənib.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşa təqdim edən Əli Hüseynli bildirib ki, dəyişiklik yerin təkindən istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyətin sərtləşdirilməsi məqsədilə təklif edilir. Yerin təkindən istifadə qaydalarının pozulması ilə bağlı inzibati xətalara görə fiziki şəxslərə, vəzifəli şəxslərə və hüquqi şəxslərə tətbiq edilən cərimələrin artırılması təklif edilir.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuş üçün qəbul edilib.

Əli Hüseynli "İnzibati icraat haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşa təqdim edib. Qeyd olunub ki, layihə dövlət və bələdiyyə torpaqlarının istifadəyə, icarəyə və mülkiyyətə verilməsi ilə əlaqədar rayon (şəhər) icra hakimiyyəti başçılarının sərəncamlarının məhkəmələrdə mübahisələndirilməsi məsələsinin tənzimlənməsi məqsədilə hazırlanıb.

Belə ki, bir sıra hallarda Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət və bələdiyyə torpaqlarının istifadəyə, icarəyə və mülkiyyətə verilməsi ilə əlaqədar rayon (şəhər) icra hakimiyyəti başçılarının sərəncamlarının mübahisələndirilməsi ilə bağlı qaldırılan iddialara məhkəmələr tərəfindən inzibati orqanlar arasında aidiyyət və səlahiyyətlərlə bağlı mübahisə olması əsası ilə baxılmır. Təqdim olunan layihə həmin problemin aradan qaldırılması üçün hazırlanıb.

İclasda, həmçinin İnzibati Xətalar, Cinayət məcəllələrində, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə də ikinci oxunuşda baxılıb. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Əli Hüseynli "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanunda nəzərdə tutulan dəyişiklikləri ikinci oxunuşda şərh edib. Bildirilib ki, qanun layihəsinə əsasən "Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlar" adlı 3-cü maddəyə "əl-barmaq izləri" sözləri əlavə ediləcək. 9.4-cü maddədə isə "vətəndaşa" sözü "vətəndaşdan əl-barmaq izləri götürülmür, habelə ona" sözləri ilə əvəzlənir.

Sənəd səsə qoyularaq təsdiqlənib. İkinci oxunuşda "Pasportlar haqqında" Qanunda edilən dəyişiklikləri təqdim edən Əli Hüseynli deyib ki, sənədə görə diplomatik pasportlar Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri nəzdində təsis edilən hərbi attaşelik aparatlarının zabit heyətinə, həmçinin beynəlxalq təşkilatlardakı hərbi nümayəndəlik və onların müavinlərinə, eyni zamanda, müvafiq icra hakimiyyəti orqanının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinə də veriləcək.

Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə "Bələdiyyələrin statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, qəbiristanlıqların salınması və idarə olunması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilir. Həmin qaydaların tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

Qeyd olunub ki, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsində qəbiristanlıqların salınması və idarə olunması məsələlərində bələdiyyələrin üzərinə düşən vəzifələrin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilmədiyi hallarda məsuliyyət məsələsini təmin etmək məqsədilə 4-cü maddəyə yuxarıda göstərilən dəyişikliyin edilməsi təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Sonra Arif Rəhimzadə "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda şərh edib. Deyib ki, bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım məqsədilə yerli büdcədə zəruri xərclər nəzərdə tutulur və təyinatı üzrə sərf edilir.

Bildirilib ki, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının qanun layihəsi "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli Qanununa uyğun olaraq hazırlanıb və yerli (bələdiyyə) büdcədə qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması məqsədi ilə zəruri xərclərin nəzərdə tutulmasını təsbit edir.

Bu qanun layihəsi də səsə qoyularaq qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsini ikinci oxunuşa təqdim edib. Bildirib ki, qanun layihəsi 5 fəsil, 19 maddədən ibarətdir. Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 1-ci bəndinə uyğun olaraq, uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Qanun layihəsi səsə qoyularaq qəbul edilib. Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

**Rəfiqə Kamalqızı**

## UNEC ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramına başlayır

***İstanbulda ABŞ-ın Linkoln Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında ikili diplom proqramına dair müqavilə imzalanıb. Sənədi UNEC-in rektoru, professor Ədalət Muradov və Linkoln Universitetinin rektoru, professor Mixail Brodski imzalayıb.***



UNEC-dən AZƏRTAC-a bildirilib ki, müqaviləyə əsasən, tələbələr öz seçimlərinə uyğun olaraq, 1 və ya 2 il ABŞ-da oxuduqdan, yaxud ABŞ-dan gələn professorların tədris etdiyi 9-12 fənni Bakıda dinləyib uğurla imtahan verdikdən sonra UNEC-lə yanaşı, Linkoln Universitetinin diplomunu da əldə edə biləcəklər. Müqavilənin üstünlüyü ondadır ki, ikili diplom proqramı həm bakalavrlara, həm də magistrlərə aid edilir. Linkoln Universiteti 1919-cu ildə yaradılıb. "San Francisco Business Times" reytinqinə əsasən, "University of Californiya", "Berkeley/Haas School of Business" və "Stanford Graduate School of Business"dən sonra "MBA Proqrams in the Greater Bay Area"da ən yaxşı MBA (biznesin idarə edilməsi) təhsili verən universitetdir.

**Ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların müsbət nəticələri cari ilin 9 ayının yekunlarında da özünü göstərdi. Respublikamızın iqtisadiyyatının bütün sahələrində göstəricilərin getdikcə yüksəlməsi buna bariz nümunədir. Aparılan islahatların tərkib hissəsini ölkəmizdə qeyri-neft sektorunun inkişafına yönəldiyini nəzərə alsaq, bu sahədə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çoxlu sayda fərman və sərəncamların verildiyini, Dövlət proqramlarının qəbul edilərək reallaşdırıldığını görə bilərik. Uğurla reallaşdırılan islahatlar qeyri-neft sektorunun ən gəlirli sahələrindən olan turizmin inkişafına da ciddi təkan verib. Dövlət başçımızın diqqət və qayğısı sayəsində bu gün turizm iqtisadiyyatımızın aparıcı sahəsinə çevrilib. Ümumiyyətlə, ölkəmizdə turizm sektorunun inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib, bu sahə üçün lazım olan bütün infrastruktur yaradılıb. Görülən tədbirlər nəticəsində ölkəmizə gələn qonaqların sayı kəskin şəkildə artıb. Belə ki, turistlərin sayı 2016-cı ildə 22, 2017-ci ildə 20, bu ilin 9 ayında isə 6 faiz artıb. Qeyd edək ki, turizm sahəsində baş verən bu inkişaf Prezident İlham Əliyevin 2016-cı ilin oktyabrından etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların maksimum 3 saat ərzində verilməsinə dair sərəncamlarının böyük rolu var. Belə ki, sərəncamlardan irəli gələrək ölkəmizdə "ASAN Viza" sisteminin yaradılması Azərbaycanda turizmin inkişafını daha da sürətləndirib.**



# Əcnəbini 2 dəqiqəyə Azərbaycana gətirən XİDMƏT

ARAŞDIRMA



## "ASAN Viza" sistemi vasitəsi ilə 95 ölkəyə elektron viza verilməsi təmin edilir"

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev bildirib ki, "ASAN Viza" sistemi Azərbaycan gəlmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi məqsədilə yaradılıb: "2017-ci il yanvar ayından fəaliyyətə başlayan "ASAN Viza" sisteminin 15 may 2018-ci il tarixindən etibarən Azərbaycan Beynəlxalq Hava Limanlarında da fəaliyyəti təmin edilib. Hazırda Portal vasitəsi ilə 95 ölkəyə elektron viza verilməsi təmin edilir. Bütün sistem tam avtomatlaşdırılıb və mövcud elektron viza sistemi vasitəsi ilə ölkəyə gəlməzdən əvvəl 3 gün (standart) və 3 saat (təcili) ərzində vizaların verilməsi www.eviza.gov.az saytı vasitəsi ilə həyata keçirilir. Hava limanlarında isə 15 ölkənin - Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Koreya, Çin, İran, İsrail, İndoneziya, Küveyt, Qətər, Malaziya, Oman, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə və Yaponiya vətəndaşları üçün birbaşa vizaların verilməsi təmin edilir".



## "Bu günə qədər 825.208 viza verilib"

Şöbə müdiri qeyd edib ki, bu günə kimi 624.175-i "ASAN Viza" portalı vasitəsi ilə, 201.033-ü hava limanlarında olmaqla, ümumilikdə 825.208 viza verilib: "Müraciətlərin çoxluğuna görə isə ilk beşlikdə olan İran İslam Respublikası, Səudiyyə Ərəbistanı, Pakistan, Hindistan və Türkiyədir. Bakı, Gəncə, Qəbələ və Lənkəran beynəlxalq hava limanlarında "ASAN Viza" sistemi vasitəsilə əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların rəsmiləşdirilməsi təmin edilir. Hazırda hava limanlarında 83 əməkdaş fəaliyyət göstərir. Əməkdaşlar ölkəmizə səfər edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan, ingilis, fransız, ispan, alman, türk, hind, ərəb, fars, ibri, urdu, norveç və rus dillərində xidmət göstərirlər".

## "Vizanın verilməsi 2 dəqiqə ərzində təmin edilir"

E.Niftəliyev qeyd edib ki, orta hesabla bir əcnəbi vətəndaş üçün vizanın verilməsi 2 dəqiqə ərzində təmin edilir: "ASAN Viza" portalı və özünəxidmət terminalları Azərbaycan, ingilis, fransız, ispan, alman, italyan, ərəb, fars və rus olmaqla - 9 dildə fəaliyyət göstərir. Özünəxidmət terminalları ilə yanaşı 4 pəncərədə viza verilməsi və bank xidmətləri də həyata keçirilir".

## "ASAN Viza" ölkəmizə gəlmək istəyənlərin işini asanlaşdırıb"



Elektron xidmətin Azərbaycan turizm sektorunun və ümumilikdə ölkə iqtisadiyyatına təsirləri haqqında danışan iqtisadçı ekspert Ruslan Atakişiyev söyləyib ki, "ASAN Viza"nın tətbiqi nəticəsində ölkəmizə xarici turistlərin və iş adamlarının gəlməsi xeyli asanlaşıb: "Turistlərlə yanaşı, sahibkarların, iş adamlarının, ümumilikdə ölkəmizə gəlmək istəyənlərin işi yüngülləşib. Əgər əvvəllər bunun üçün konsulluq, səfirliklərə müraciət edərək, uzun zaman tələb olunurdusa, bu xidmətin fəaliyyəti başlaması nəticəsində problemlər həllini tapmış oldu. Bu xidmətə keçid Azərbaycanla müxtəlif ölkələr arasında iqtisadi. mədəni münasibətlərin daha da yaxınlaşmasına gətirib çıxarıb. Gediş-gəlişin asanlaşması həm mübadilə proqramlarının, həm biznes görüşlərin, təhsil proqramları, konfranslarda iştirak, o cümlədən də turizm sahəsi üçün mühüm əhəmiyyət kəsb edir".

## "Vaxta və maliyyəyə qənaət etmək imkanı"

Ekspert qeyd edib ki, "ASAN Viza" istənilən ölkə ilə hərtərəfli münasibətlərin daha da yaxınlaşmasına gətirib çıxarır: "Təbii ki, müasir dövrdə bir sıra ölkələr milli gəlirin formalaşmasının böyük hissəsini xaricdə yaratmağa çalışır. Azərbaycanda bu cür imkanların yaradılması bizim vətəndaşlar üçün də xaricdə geniş imkanların yaradılmasına kömək göstərmiş olur. Ümumiyyətlə, viza prosesinin asanlaşdırılması ilə yanaşı bunun elektron olaraq həyata keçirilməsi, həm dəvət edən, həm də gələn üçün ilk növbədə vaxta, maliyyəyə qənaət etmək imkanı yaradır. Bununla yanaşı, ölkəyə gəlmək istəyənlərin marağını artırır".

## "Vizanın asan şəkildə tətbiq olunması bir sıra ölkələrin Azərbaycana marağını daha da artırıb"

R.Atakişiyev qeyd edib ki, "ASAN Viza"nın ölkəyə investisiya qoyuluşu baxımından rolunu xüsusi qeyd etmək olar: "Bildiyiniz kimi ölkəyə investisiya qoyuluşunu şərtləndirən amillər var ki, onlardan da biri sahibkarların ölkəyə gəlmək asanlığıdır ki, bu da biznes görüşlərin keçirilməsində önəm kəsb edir. Bu baxımdan vizanın daha asan şəkildə tətbiq olunması, bir sıra ölkələrin Azərbaycana marağını daha da artırıb".

Ekspert əlavə edib ki, xarici vətəndaşların Azərbaycana gələrkən əmtəə və mal alışı həyata keçirməsi bir başa və dolayı yolla ölkə iqtisadiyyatına təsir göstərir: "Çoxlu sayda turist səfəri alışların sayını artırır ki, bunun nəticəsində müəssisələr gəlir əldə edir, insanlar əmək haqqı alır, əldə olunan gəlirlər vasitəsilə vergi ödəmələri həyata keçirirlər. Belə olan halda, ASAN Viza dolayı yolla vergi ödəmələrində artıma səbəb olur ki, bu da nəticə etibarı ilə dövlət büdcəsinin gəlirlərinə müsbət təsir etmiş olur ".

## "15 xarici ölkə vətəndaşlarına vizanın hava limanında verilməsi ölkə turizmi üçün böyük üstünlüklər yaradır"

Azərbaycan Turizm Assosiasiyası İdarə heyətinin sədri Nahid Bağırov vurğulayıb ki, 15 xarici ölkə vətəndaşlarına vizanın hava limanındaca verilməsi Azərbaycan turizmi üçün böyük üstünlüklər yaradır: "Viza verilməsi prosedurunun daha da asanlaşdırılması Azərbaycan turizminin inkişafına səbəb olacaq. Bəllidir ki, əvvəllər vizanın verilməsi



ilə bağlı tez-tez şikayətlər daxil olurdu. Ancaq indi prosedur daha da təkmilləşərək elektron formada yerinə yetirilir. Viza prosesinin sadələşdirilməsi turistlərin işini rahatlaşdırıb. Əminəm ki, bundan sonra bəhs olunan məsələ ilə bağlı şikayətlərin sayı da sıfıra enəcək".

ATA rəsmisi əlavə edib ki, əldə olunan nailiyyətlərlə kifayətlənmək olmaz, ölkəmizə daha çox turist axınını təmin etməli, bu istiqamətdə atılan addımları davam etdirməliyik: "Görülən işlər nəticəsində 2017-2018-ci illərdə ölkəmizin turizm sahəsində xeyli nailiyyətlər əldə olunub. Bu artım tempinin növbəti illərdə də sürətlə davam edəcəyinə əminik".

***Nailə Məhərrəmova***

# 26 il: Qələbələr salnaməsi

## Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan "91-lər"in 1992-ci ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə müraciəti müstəqilliyimizin əbədiliyinin təmin edilməsində əhəmiyyətli rol oynadı

***Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin çağırışları sırasında bu məqsəd öndə dayanırdı - Azərbaycanı təkcə müstəqil bir dövlət, zəngin təbii sərvətlərə malik ölkə kimi yox, zəngin tarixi və mədəniyyəti olan ölkə kimi tanıtmalıyıq. Ölkəmizin 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq dövlət müstəqilliyini bərpa etməsindən bizləri ayıran 27 il tariximizə bir-birindən əhəmiyyətli uğurlar yazıb. Müsəlman Şərqində ilk demokratik Cümhuriyyətin bayrağını, himnini və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May Gününün dövlət bayramı səviyyəsində Respublika Günü kimi qeyd edilməsi Azərbaycanın 1918-ci ildə imzalanmış İstiqlal Bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür. Dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi də səbəbsiz deyil. Bu, bir daha dövlətçiliyimizə, ənənələrimizə, Azərbaycan xalqının müstəqilliyinə böyük töhfədir. Sənəddə də qeyd edildiyi kimi, Azərbaycan Xalq Cümhuriyyəti qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı.***



**Vüqar Rəhimzadə, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, əməkdar jurnalist, "91-lər"dən biri**

"Azərbaycan Xalq Cümhuriyyəti İli" tarixi paralellər fonunda hər bir mühüm hadisənin mahiyyətini daha dərindən dərk etməyi və əsaslı şəkildə indiki və gələcək nəsillərə çatdırmağı bir tələb kimi qarşıya qoyur. Azərbaycan tarixinə xaos, anarxiya, özbaşınalıq və iqtisadi böhran dövrü kimi yazılan 1991-1993-cü ilin yayınadək olan mərhələ, eyni zamanda, müstəqilliyimiz üçün təhlükənin yarandığı illər kimi də xarakterizə olunur. O illərdə ölkəyə idarəçilik qabiliyyəti olmayan, səriştəsiz insanların rəhbərlik etməsi Azərbaycanı müstəqilliyini itirmək və dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoydu.

Bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, nəinki respublikamızın və regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının yaradılmasını zərurətə çevirən də, məhz həmin dövrün reallıqları idi. Ümumilikdə, Azərbaycan xalqının istəyini əks etdirən 91 nəfər ziyalının 1992-ci ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə ünvanladığı "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətində o dövrün gerçəklikləri öz əksini tapıb: "Azərbaycan, sözün əsl mənasında, siyasi-iqtisadi və mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür... Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyillərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi respublikamızın, onsuz da ağır olan durumunu, daha da dərinləşdirir." Müraciətdə, həmçinin, bu məqam da diqqətə çatdırılırdı ki, yeni-yeni partiyaların meydana çıxması fonunda ölkədə ictimai-siyasi həmrəyliyin yaradılması istiqamətində heç bir iş görülmür. Bu siyasi partiyaların rəhbərləri arasında, sözün əsl mənasında, geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, öz ətrafında müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək, beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam və geniş məlumatı olan güclü lider yoxdur. Müraciətdə bu inam ifadə olunurdu ki, yeni qüvvələrin öncülü, aparıcısı Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyət olarsa, tezliklə respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar: "Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü və aparıcı qüvvəyə malik bir partiya kimi görürük."

Ulu Öndər Heydər Əliyev ziyalıların müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabında partiyanın gələcəyinə inamını belə ifadə etmişdir: "Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər."

Məlum səbəblərdən təsis konfransını Naxçıvanda, müxtəlif bölgələrdən 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının bu gün sıralarında 700 mindən çox üzv birləşir. Partiyanın keçirilən qurultaylarında, tədbirlərində daim onun yaranma səbəblərinə diqqət yönəldilir və qürur hissi ilə qeyd edilir ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda Onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyanın sıralarında təmsil olunmaq böyük xoşbəxtlikdir. Ulu Öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını belə əsaslandırırdı: "Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün, zamanın tələblərinə uyğun olaraq, zəruriyyətdən yaranmış bir partiyadır. Biz partiyanı yaradarkən, heç də düşünmürdük ki, qısa bir müddətdən sonra hakimiyyətə gələcəyik. Baxmayaraq ki, ölkəmizdəki vəziyyət - sizin hamınıza məlum olan vəziyyət bizim hamımızı düşündürürdü. Ona görə də, bir tərəfdən, biz hesab edirik ki, partiyanı yaradaraq biz xalqımıza müəyyən bir xidmət göstərə bilərik. İkinci tərəfdən də, sadəcə, ölkənin belə ağır vəziyyətində bir çox insanların ümidi, istəyi, nəhayət, bu partiyanın yaranmasına gətirib çıxardı." Dahi şəxsiyyət bu məqamı da qeyd edirdi ki, bəziləri deyirlər ki, müstəqilliyi biz əldə etmişik. Əgər siz, həqiqətən, bu müstəqilliyi almısınızsa, bəs bunu nə üçün qoruyub- saxlaya bilmirdiniz? Təxminən 1 il 6-7 ay yaşı olan müstəqil Azərbaycan dövləti parçalanırdı və vətəndaş müharibəsi başlamışdı.

Tarixi vərəqlədikdə, Azərbaycanın müstəqillik yolunun heç də hamar olmadığı aydın görünür. Qeyd etdiyimiz kimi, Azərbaycanın müstəqilliyi böyük təhlükə altında idi. Həqiqi müstəqillik yalnız və yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından, Yeni Azərbaycan Partiyasının iqtidarda olduğu zamandan həyata keçirdiyi uğurlu siyasət nəticəsində mümkün olub. Bu gün böyük fəxr hissi ilə müstəqilliyimizin ildönümlərini Ulu Öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində dünyada tanınmış, daxildə ictimai-siyasi vəziyyəti sabitləşmiş, iqtisadi-siyasi və sosial böhrandan çıxmış və nəhayət, 1995-ci ildən başlayaraq, bütün sahələrdə inkişafı təmin edilmiş bir müstəqil Azərbaycan dövləti olaraq qeyd edirik. Ümummilli Lider bildirirdi: "...Bunlara görə də, bizim əsasımız vardır deyək ki, Yeni Azərbaycan Partiyası, bizim hamımız və təbiidir ki, Azərbaycanın Prezidenti və partiyanın sədri müstəqilliyin həyata keçirilməsinin əsas qüvvəsidir və təkcə onun qorunub-saxlanmasının yox, Azərbaycanın müstəqil dövlət kimi ağır şəraitdə inkişaf etməsinin təminatçısıdır."

Qeyd etdiyimiz kimi, 1992-ci ildə zamanın tələbindən yaranan Yeni Azərbaycan Partiyasının ötən 26 ildə keçdiyi yol, əldə etdiyi uğurlar bir-birindən əhəmiyyətli olmaqla yanaşı, gələcək barədə də aydın təsəvvür yaradır. Seçki ili kimi də tarixə yazılan 2018-ci ilin fevralında keçirilən partiyanın VI qurultayında "Bu 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir" söyləyən dövlətimizin başçısı cənab İlham Əliyev bildirmişdir ki, partiyamızın yaradılması dönüş nöqtəsi idi: "Əgər o vaxt bu partiyamız yaradılmasaydı, bilmək olmazdı ölkə hansı istiqamətdə inkişaf edəcəkdi. Çünki o vaxt ölkəmizin qarşısında çox ciddi problemlər durmuşdu. Demək olar ki, Azərbaycan, onun gənc müstəqilliyi təhlükə altında idi. O vaxt hakimiyyəti 1992-ci ildə qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi uçuruma aparırdı."

Dünyada analoqu olmayan hadisədir ki, partiya yarandığı qısa müddətdə cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilsin, iqtidar partiyası kimi fəaliyyətə başlasın. İlk olaraq, bu uğura Yeni Azərbaycan Partiyası imza atıb. Belə ki, yaranmasından 7 ay sonra iqtidar partiyasına çevrilən YAP Azərbaycanın davamlı inkişafına layiqli töhfələr vermək istiqamətində səylərini artırdı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı təkcə ölkənin deyil, Yeni Azərbaycan Partiyasının da həyatında yeni mərhələnin əsasını qoydu. Sabitliyi hər bir inkişafın əsası kimi dəyərləndirən Ümummilli Lider Heydər Əliyevin uğurlu daxili siyasəti nəticəsində, Azərbaycan qısa müddətdə sabitlik diyarına - böyük investisiyalar məkanına çevrildi. Ümummilli Liderin gərgin səyləri nəticəsində, 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması növbəti mərhələdə davamlı uğurlara yol açdı. Həmin il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. "Bu, bu gün də və gələcək illərdə də ölkə iqtisadiyyatı üçün müstəsna rol oynayan kontraktdır" söyləyən dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 23 illiyi ərəfəsində Ulu Öndərin adını daşıyan möhtəşəm Heydər Əliyev Mərkəzində kontraktın 2050-ci ilə qədər uzadılması haqqında qərarı önə çəkərək bildirir: "Görün, bu kontraktın nə qədər böyük əhəmiyyəti var ki, artıq yarım əsrdən çox müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir."

Ölkəmizdə demokratik cəmiyyətin əsas atributları olan insan hüquq və azadlıqlarının, mətbuat azadlığının təmin olunması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, şəffaf, beynəlxalq standartlara uyğun keçirilməsi və s. kimi mühüm amillərin bərqərar olması istiqamətində davamlı addımlar atıldı və bu günümüzün əsas reallıqlarından biri də budur ki, Azərbaycanın demokratiya təcrübəsi digər dövlətlərə nümunədir. Demokratikləşmə prosesinin sürətləndirilməsi, öz növbəsində, iqtisadi tərəqqini və Azərbaycanın beynəlxalq aləmdə mövqeyini şərtləndirdi.

27 illik müstəqillik tarixinə malik olan Azərbaycanın uğurları bir-birini əvəzlədikcə gələcəyə inam daha da artır. Bu gün Azərbaycanın dünyanın ən nüfuzlu təşkilatlarında yüksək səviyyədə təmsil olunması, həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün tribunalar əldə etməsi, müxtəlif sahələri əhatə edən beynəlxalq tədbirlərin təşkili üçün ideal məkan kimi dəyərləndirilməsi, ən əsası iqtisadi möcüzələr ölkəsi kimi tanınması və nüfuz qazanması düzgün təmələ əsaslanan siyasətin nəticəsidir. Sözsüz ki, bu uğurlarda Yeni Azərbaycan Partiyasının rolu inkaredilməzdir. Partiyanın keçdiyi 26 illik şərəfli yol ən əsası xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu təsdiqləyir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq, Prezident seçilən Cənab İlham Əliyev Azərbaycanın daha da qüdrətli və güclü dövlətə çevrilməsi üçün Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etmişdir.

2003-2008-ci illər ərzində görülən işlər,

# 26 il: Qələbələr salnaməsi

## Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan "91-lər"in 1992-ci ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə müraciəti müstəqilliyimizin əbədiliyinin təmin edilməsində əhəmiyyətli rol oynadı

əldə olunan uğurlar dövlət başçısı İlham Əliyevin 2008-ci il prezident seçkilərində, 2008-2013-cü illərdə gördüyü işlər 2013, 2013-2018-ci illərdə verdiyi vədlərin reallıqda öz əksini tapması 2018-ci il 11 aprel prezident seçkilərində qələbəsini təmin etdi.

Bir əsas məqamı da qeyd edək ki, 2016-cı ildə keçirilən ümumxalq səsverməsinə çıxarılan konstitusiyadakı əlavə və dəyişikliklər arasında prezidentlik müddətinin 7 ilədək uzadılması əhali tərəfindən böyük rəğbətlə qarşılanmışdı. 11 aprel prezident seçkilərində ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin qələbəsi növbəti 7 ilin hədəflərinin gerçəkləşməsinə yol açdı. Həmin əlavə və dəyişikliklərin bir hissəsini əhatə edən idarəetmə sistemində təkmilləşməyə yönələn addımlardan biri də vitse-prezidentlik institutunun yaradılması idi. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması uğurlarımızın davamlılığını şərtləndirən əsas amillərdəndir. Mehriban xanım Əliyeva təqdimat mərasimində bildirmişdir: "Gündəlik fəaliyyətimizdə insanseverlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar." Azərbaycanın Birinci vitse-prezidenti bu əminliyi də ifadə etmişdir ki, gələcək fəaliyyətimi, məhz bu prinsiplər əsasında qurmağa çalışacağam: "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam." Azərbaycanın Birinci vitse-prezidenti kimi də Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasında sosial məsələlərin həlli dayanır. Onun bir ildən artıq fəaliyyəti dövründə bu istiqamətdə gördüyü işlərin miqyasının genişliyi göz önündədir.

Azərbaycanın demokratik inkişaf tarixinə yeni bir səhifəni əlavə edən 11 aprel prezident seçkilərindən sonra dövlətimizin başçısı Cənab İlham Əliyev andiçmə mərasimində bildirmişdir: "Son 15 il ərzində kifayət qədər uğurlar və nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız və planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə, mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları



daha da yaxşı yaşasınlar."

Belə bir ümumiləşdirmə aparsaq, 1993-2003-cü illəri ölkəmizdə sabitlik və inkişaf illəri kimi xarakterizə edən dövlətimizin başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayında bu fikri də əsaslı şəkildə diqqətə çatdırdı ki, 2003-cü ildən sonra da Azərbaycanın uğurlu inkişafı davam etmişdir: "2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır."

Dövlətimizin düzgün təmələ əsaslanan siyasəti nəticəsində, yaşadığımız il daim əvvəlki ildən daha böyük uğurlarla zəngin olur. Prezident İlham Əliyevin vurğuladığı kimi, hər sahə üzrə proqramların mövcudluğu, onların xalq tərəfindən dəstəklənməsi və yüksək səviyyədə icrası uğurların davamlılığına böyük stimul verir. Prezident kimi fəaliyyətə başladığı gündən Cənab İlham Əliyev iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını əsas məqsəd kimi qarşıya qoydu. Regionların malik olduğu imkanlardan səmərəli istifadə etmək məqsədilə regional inkişaf proqramları təsdiqləndi və uğurla icra edilir. Artıq Üçüncü Proqramın icrası başa çatmaqdadır. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından az itki ilə çıxmasını təmin etdi.

Bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirilən rəqəmlər də Azərbaycanın inkişaf modelinin özəlliyini və öyrənilməsinin vacibliyini bir daha nümayiş etdirdi.

İqtisadi tərəqqi ölkələr arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır. Azərbaycan çoxşaxəli xarici siyasət yürüdür. Ölkəmizin 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi Azərbaycanın bu gününə və gələcəyinə, ədalətli mövqeyinə inamdan irəli gələn mühüm hadisə idi. Ölkəmiz siyasətində müstəqil olduğunu atdığı hər addımında nümayiş etdirir. Düzgün seçilən yol Azərbaycanın dostlarının sayını artırır və beynəlxalq nüfuzunu möhkəmləndirir. 11 aprel prezident seçkilərində xalqın böyük dəstəyini qazanaraq, qələbəsini təmin edən Cənab İlham Əliyevə ünvanlanan təbrik məktublarında da Azərbaycanın son 15 ildə qazandığı uğurlar fonunda qarşıdakı illərə inam hissi xüsusi olaraq, önə çəkilmişdir. Beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi nüfuz qazanan Azərbaycan təşəbbüsləri gerçəkliyə çevirməklə, iqtisadi qüdrətini günbəgün artırır, yeni-yeni layihələrin gündəmə gətirilməsinə stimul verir. Son 15 ildə Azərbaycanın təkcə enerji sektorunda qazandığı uğurlara diqqət yetirmək kifayətdir. BTC və BTƏ neft-qaz kəmərlərinin, BTQ dəmir yolunun istifadəyə verilməsi, "Yeni əsrin müqaviləsi"nin imzalanması, "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi və s. kimi biri-birindən mühüm hadisələr Azərbaycanın qarşıdakı illər üçün iqtisadi imkanlarının aydın mənzərəsini yaradır.

Hər zaman qeyd etdiyimiz kimi, uğurlu başlanğıc uğurların davamlılığı və yeni hədəflərin müəyyənləşdirilməsi üçün əsasdır. 27 il bundan öncə, Azərbaycan xalqı ictimai-siyasi sabitliyin təmin olunmasını, ölkənin inkişafını arzulayırdısa, bu gün artıq inkişaf etmiş ölkələr sırasında birgə addımlamaq əsas hədəfimizdir.

Ölkədə keçirilən hər bir seçki prosesindən Yeni Azərbaycan Partiyasının böyük qələbə ilə çıxması, onu göstərir ki, xalqın bu partiyanın siyasətinə dəstəyi və inamı böyükdür. Bu inam partiyanın sıralarının kəmiyyət və keyfiyyət baxımından möhkəmlənməsində də özünü təsdiqləyir. Bu gün tutduğu yola sadiqliyini atdığı addımları ilə təsdiqləyən Yeni Azərbaycan Partiyası ümumxalq partiyası imicini daha da möhkəmləndirir, yeni hədəflərə çatmaq üçün səylərini artırır. 2018-ci ilin aprelində keçirilən prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq, yenidən dövlət başçısı seçilən Cənab İlham Əliyev andiçmə mərasimində gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər əsaslar olduğunu önə çəkərək bildirmişdir: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam və bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də, öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti, ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur."

Bu gün Yeni Azərbaycan Partiyasının hər bir üzvü, eyni zamanda, harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı müstəqil dövlətimizin daha da qüdrətli, zəngin və müasir dövlətə çevrilməsinə öz töhfəsini verməlidir. Böyük fəxr hissi ilə qeyd edirik ki, güclü və qüdrətli Azərbaycan hər birimizin qürur mənbəyidir.

Təbii ki, ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, sözlə əməl birliyini və monolitliyini qoruyan Yeni Azərbaycan Partiyasının 26 ildə əldə etdiyi uğurları bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Azərbaycanın müstəqillik tarixinin uğurlarının bələdçisi, eyni zamanda, yol yoldaşı olan Yeni Azərbaycan Partiyasına milyonların sevgisi şəksizdir. Tutduğu yola sadiqlik uğurların əsasıdır. Yeni Azərbaycan Partiyası, hər dövrün tələbinə uyğun olaraq, fəaliyyətini daha da təkmilləşdirir, Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunu möhkəmləndirməsinə davamlı töhfələrini verir. Partiyanın beynəlxalq əməkdaşlığa verdiyi önəm də, bu istəyindən qaynaqlanır. Uğurlarımızın ümumiləşdirilmiş ifadəsi olaraq, deyə bilərik ki, Azərbaycanın bugünkü reallıqları, eyni zamanda, onların fonunda müəyyənləşdirilən və gerçəkləşəcəyinə böyük inam ifadə olunan hədəflər Heydər Əliyev siyasətinin təntənəsidir. Son on beş ildə Ulu Öndər Heydər Əliyev siyasətinə sadiqliyini uğurlu addımları ilə təsdiqləyən Cənab İlham Əliyev "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını təsdiqləməklə, həmçinin, davamlı inkişafa yol açan strateji yol xəritələrinin hazırlanması və icrası ilə bağlı Sərəncamı imzalamaqla bir daha modernləşmənin və yeniləşmənin dövlət siyasətinin əsasını təşkil etdiyini nümayiş etdirir.

Bu gün yeganə problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycanın diplomatik uğurları və hərbi qüdrəti bu problemimizin də tezliklə öz ədalətli həllini tapacağına əminliyi artırır. Bizim hər bir qələbəmiz işğalçı Ermənistanın faciəsidir. Dövlətimizin başçısı Cənab İlham Əliyevin daim bəyan etdiyi kimi, Azərbaycan bayrağının Şuşada və Xankəndidə dalğalanacağı gün uzaqda deyil.

Qısa təhlil 1992-ci ilin oktyabr ayının bu gününün müasir dövrümüz üçün önəmini bir daha açıqlayır və bu inamı ifadə etməyimizə əsas verir ki, Azərbaycan Ümummilli Lider Heydər Əliyev yolu ilə inamla irəliləyir, Onun yaradıcısı olduğu və hazırda dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasını daha böyük qələbələr gözləyir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

17 oktyabr 2018-ci il

# Daşkəsən rayonu uğurlu və perespektivli inkişaf yolunda

*Rayonda 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirilib*

***Dünən Daşkəsən rayonunda 2018-ci ilin doqquz ayın sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilib.***

Yığıncağı giriş nitqi ilə açan Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin, son on beş il ərzində, uğurlu daxili və xarici siyasəti nəticəsində, Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, əhalinin sosial rifahının yüksəldiyini, xüsusilə,





ölkəmizdəki sabitliyin, sürətli inkişaf və beynəlxalq miqyasda nüfuzunun əhəmiyyətli dərəcədə artdığını, yeni-yeni nailiyyətlərin, qələbələrin qazanıldığını və ölkəmizin regionda lider dövlətə çevrildiyini vurğulayıb: "Azərbaycan xalqının 2018-ci ilin 11 aprel Prezident seçkilərində seçimi son on beş ildə Cənab Prezident İlham Əliyevin uğurlu siyasətinə, ölkədə inkişaf və tərəqqiyə verilən qiymətin bariz təzahürüdür. Seçkilərdə ölkə vətəndaşlarının 74,3 faizi iştirak etmiş, onlardan 86,02 faizi Cənab İlham Əliyevin namizədliyini dəstəkləmiş və Ona səs vermişlər. Aprelin 11-də keçirilmiş Prezident seçkisi bir çox beynəlxalq təşkilatlar və müşahidəçilər tərəfindən yüksək qiymətləndirilmiş və iqtidarın demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmət, hüquqi-demokratik dövlətin əsaslarının möhkəmləndirilməsi kursunun dəyişməzliyinə sədaqətini əyani şəkildə nümayiş etdirmişdir".

Rayon icra hakimiyyətinin başçısı onu da vurğulayıb ki, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2018-ci ildə doqquz ayında uğurlu işlər və nailiyyətlər əldə olunub: "Respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2018-ci ilin 9 ayı ərzində, bir çox uğurlu işlər və nailiyyətlər əldə olunubdur. Belə ki, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müxtəlif sahələr üzrə xeyli artıbdır. Rayon ərazisində bir sıra tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri görülüb və hazırda da həmin işlər davam etdirilməkdədir. Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin həyata keçirilməsində son tamamlama işləri yerinə yetirilir. Artıq Daşkəsən şəhərinin çox hissəsi (90,7%) ekoloji cəhətdən təmiz və fasiləsiz olaraq içməli su ilə təmin olunur".

Ə.Abıyev onu da bildirib ki, Daşkəsən rayon icra hakimiyyəti tərəfindən 2013-cü ildə 53 bənddən ibarət olan "Yeni Daşkəsən" layihəsi elmi əsaslarla işlənib-hazırlanıbdır: "Daşkəsənin hərtərəfli sosial-iqtisadi inkişafı, kənd təsərrüfatının mövcud vəziyyəti, ayrı-ayrı sektorlarının - heyvandarlığın, arıçılığın, kartofçuluğun, toxumçuluğun, həmçinin turizmin inkişafı, yeni inzibati binaların, korpusların inşası, su, qaz, elektrik təchizatı, yol və körpülərin salınması məsələsi, ən əsası isə yeni iş yerlərinin açılıb işsizliyin aradan qaldırılması, sahibkarlara münbit şərait yaradılması, mövcud problemlərin həlli, o cümlədən də, Daşkəsən şəhəri "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin bazasında yaradılmasını əsas götürərək "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin, eləcə də, "Alunit" İstehsalat sahəsinin yenidən işləməsinin müasir səviyyədə təmin olunması layihədə əsas vəzifə kimi qarşıya qoyulubdur. Bu məqamda, bir əlamətdar hadisəni də qeyd etmək istəyirəm. Artıq Türkiyənin "Demo" Mühəndislik Şirkəti ilə müqavilə bağlanmışdır və bu gündən "Daşkəsən Filizsaflaşdırma" ASC-nin balansında olan filiz ehtiyatının həcminin dəqiqləşdirilməsi ilə bağlı geoloji-kəşfiyyat işlərinə başlanıb. "Yeni Daşkəsən" layihəsində "Çovdar" Filiz Emalı Sahəsinin işə salınması məsələsi də əsas vəzifə kimi qarşıya qoyulubdu. Möhtərəm Prezident Cənab İlham Əliyevin 11 fevral 2015-ci il tarixli Sərəncamı ilə tərkibinə "Çovdar" Qızıl Zavodunun daxil olduğu "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Qısa müddət ərzində, "Çovdar" Qızıl Yatağının müasir texnologiyalarla istismarının təşkil edilməsi, zavodun işə salınması üçün müvafiq hazırlıq işləri tam başa çatdırıldı və zavod müasir texnologiyalar əsasında tikildi".

Ə.Abıyev, onu da vurğulayıb ki, 2018-ci ilin 9 ayı ərzində, Daşkəsən rayon Telekommunikasiya Qovşağı tərəfindən 134800 manat həcmində rabitə xidməti göstərildi.

Toplantıda rayon maliyyə idarəsinin rəisi Natiq Zeynalov, RİHB-nin Daşkəsən şəhər İƏDÜN-i Nüsrət Vəliyev, Daşkəsən telekommunikasiya qovşağının rəisi Aslan Rüstəmov və digərləri çıxışlar edib, qarşıda duran vəzifələrin icrasından danışaraq, daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Yığıncağın sonunda toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

***R.KAMALQIZI***

# 17 oktyabr - Yoxsulluqla Mübarizə Günüdür

*Ölkəmizdə yoxsulluğun səviyyəsi minimuma endirilib*

***Bu gün dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, Azərbaycan Prezidenti İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət insan amilinə verilən yüksək dəyərin nümunəsidir.***



Əhalinin sosial rifahının yüksəldilməsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrümüzdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasət nəticəsində, əhalinin sosial rifahı yüksəlib və yoxsulluq səviyyəsi minimuma endirilib.

Bu gün - 17 oktyabr tarixin bütün dünya Ümumdünya Yoxsulluqla Mübarizə Günü kimi qeyd edir. 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının 17 oktyabr tarixini Yoxsulluqla Mübarizə Günü kimi elan etməsi bütün bəşəriyyəti bu problemlə mübarizəyə səsləmiş oldu. Bu günün təsis edilməsinin məqsədi həm də yoxsulluğa qarşı milli, regional və beynəlxalq səviyyələrdə mübarizə səylərini birləşdirməkdir.

Son 15 ildə yoxsulluğun azaldılması üzrə qəbul edilən dövlət proqramları öz nəticəsini verib. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilən "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində, 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7 faizdən 29,3 faizə endirildi. Azərbaycanda sosial-iqtisadi tərəqqi fonunda qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılmasına təsir göstərib.

Azərbaycan dövlətinin yoxsulluğun aradan qaldırılması istiqamətində həyata keçirdiyi davamlı işlər və bu məqsədlə dövlət başçısı tərəfindən imzalanan "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" yoxsulluğun aradan qaldırılmasına daha bir addım oldu. Təsadüfi deyil ki, Azərbaycan son illərdə yüksək inkişaf tempinə görə dünyanın lider dövlətləri arasındadır. Davos Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan Respublikası daha iki pillə irəliləyərək, iqtisadiyyatın rəqabətə davamlılığına görə dünya ölkələri sırasında 35-ci yerdə qərarlaşmışdır. 140 ölkə arasında rəqabətqabiliyyətliliyini əks etdirən bu hesabatın nəticələri Azərbaycanın dünya miqyasında iqtisadi cəhətdən nüfuzunu və gücünü əks etdirir. Azərbaycan Prezidenti bunu böyük uğurumuz və tarixi nailiyyətimiz kimi qiymətləndirib: "Bu, əslində, bizim iqtisadi siyasətimizin uğurlarını dünyanın ən mötəbər iqtisadi forumu olan Davos Forumu tərəfindən qiymətləndirilməsi deməkdir".

Prezident İlham Əliyev cari ilin doqquz ayında xarici ticarət dövriyyəsinin 37 faiz, ixracın da təxminən bir o qədər, qeyri-neft ixracının isə təxminən 14 faiz artdığını bildirib: "Bax, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən, bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur". Ölkəmiz uğurlu inkişaf yolundadır. Statistik rəqəmlər də bunu deyir. Təkcə bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılıb. Ölkəmizdə bütün sahələrdə - kənd təsərrüfatı, sənaye sahələrində və s. aparılan uğurlu islahatların, layihələrin tətbiqi nəticəsində, hazırda Azərbaycan dünyada yoxsulluq səviyyəsini 5 faizdən aşağı olduğu 29 ölkədən biridir. Sosialyönümlü dövlət proqramlarının uğurlu icrası sayəsində işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, işsizlərin və sosial cəhətdən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsinə nail olunub.

***Zümrüd BAYRAMOVA***

# İlin sonunadək Bakcell 400-ə yaxın yeni 4G (LTE) baza stansiyası istifadəyə verəcək




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti bu ilin sonunadək ölkə ərazisində 400-ə yaxın yeni 4G baza stansiyası istifadəyə verəcək. Şirkət 2018-ci il ərzində mobil internet xidmətlərini ölkənin regionlarına doğru genişləndirməyə davam edib. İl ərzində istifadəyə verilmiş 380 LTE (4G) stansiyasından 120-si ölkənin müxtəlif bölgələrində quraşdırılıb. Bunun sayəsində "Bakcell"in yüksək keyfiyyətli 4G xidməti artıq Bakı və Abşeron yarımadası ilə yanaşı, Azərbaycanın 40-a yaxın region və şəhər mərkəzində mövcuddur. Bu gün Bakcell istifadəçiləri ümumilikdə 7000-dən çox baza stansiyası vasitəsilə ölkənin ən etibarlı, ən sürətli və ən iri mobil şəbəkəsinin bütün üstünlüklərindən tam şəkildə yararlanmaq imkanına malikdirlər. Bundan əlavə, əhatə dairəsi və şəbəkə həcmi baxımından ölkənin ən böyük 4G (LTE) şəbəkəsi "Bakcell"ə məxsusdur. Şirkətin 1300-dən çox LTE baza stansiyası ilə saniyədə 225 meqabitə qədər sürəti dəstəkləyən 4G şəbəkəsi gündən-günə genişlənir.

Bakcell öz şəbəkəsinin etibarlılığını və sabitliyini təmin etmək üçün şəbəkə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq tədbirlər görür. Nəticədə, abunəçilər ən yüksək keyfiyyətli və etibarlı mobil zəng və internet xidmətinin üstünlüklərindən yararlanırlar.

"Bizim gördüyümüz işlərə yerli və beynəlxalq səviyyədə yüksək qiymət verilir. Bu yaxınlarda Bakcell "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Dünyada tanınmış "Ookla" şirkəti tərəfindən təsdiq edilib ki, Bakcell şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. Mobil şəbəkələrin sınaq və təhlili sahəsində dünyanın ən nüfuzlu qurumu tərəfindən toplanmış bu məlumat Azərbaycandakı istifadəçilərin 18.000 ayrı-ayrı unikal cihaz vasitəsilə həyata keçirdiyi 80.000 sınaq (Speedtest platforması üzərindən) əsasında formalaşıb", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib. Bakcell özünün yüksək keyfiyyətli mobil şəbəkəsinin modernizasiyası və əhatə dairəsinin genişləndirilməsi istiqamətində geniş miqyaslı işlərin həyata keçirilməsini davam etdirir.

# Son 15 il ərzində ölkəmizdə dünyanın ən müasir təhsil ocaqları tikilib

## *Musa Qasımlı: "Azərbaycan savadlılıq baxımından, dünyanın inkişaf etmiş ölkələri ilə rəqabət aparmaq gücündədir"*



**Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük nailiyyətlər əldə olunub. Təhsilin keyfiyyətli təşkili, yeni dərsliklərin nəşri, pedaqoji kadrların hazırlanması və yerləşdirilməsi, peşə təhsili və digər istiqamətində çox ciddi addımlar atılıb.**

Bütün bunlarla yanaşı, ölkəmizdə dövlət başçısının məlum sərəncamları ilə müasir standartlara cavab verən, müasir tipli məktəblər də istifadəyə verilib. Görülən işlərin davamı olaraq Azərbaycan Prezidenti Cənab İlham Əliyev 12 oktyabr 2018-ci il tarixində Ağcabədi rayonunun Salmanbəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Ağcabədi rayonunun Salmanbəyli kəndində 432 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1 (bir) milyon manat ayrılıb.

Dövlətimiz tərəfindən yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlərlə bağlı "Səs" qəzetinə açıqlamasında millət vəkili, Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Musa Qasımlı bildirdi ki, son 15 il ərizində təhsilimizə dövlətimiz tərəfindən ayrılan diqqət tariximizdə indiyə qədər görünməmiş bir haldır: "Azərbaycan Prezidenti Cənab İlham Əliyevin təhsilə yüksək qayğı və diqqət göstərməsi və bu sahənin hərtərəfli inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri elan etməsi son illərdə müstəqil respublikamızda təhsilin inkişafına əlverişli şərait yaradıb. "2005-2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə inkişaf proqramı", "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı" (2005-2007-ci illər), "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" və s. təhsilin məzmunu və keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşməyə səbəb olub." Millət vəkili onu da bildirdi ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının inşası regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında, ölkə başçısının fərman və sərəncamlarında əksini tapmışdır. Bunun müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addım olduğunu bildirən M.Qasımlı məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlərin böyük əhəmiyyətə malik olduğunu vurğuladı: "Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar siyasəti nəticəsində ölkənin imkanları artdıqca, dövlət əldə olunan gəlirləri milli-intellektual potensialın gücləndirilməsinə yönəldir. Bu gün Azərbaycanda dünyanın ən müasir təhsil ocaqları tikilib. Son 15 il ərzində ölkəmizdə 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Hətta ən ucqar dağ kəndlərində belə müasir tipli məktəblər istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu gün dünyada savad, bilik və texnologiyalar hər şeyi həll edir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmayıb. Azərbaycan təhsilinə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək kadların yetişməsinə doğru atılan addımlar bizə deməyə əsas verir ki, bu gün ölkəmiz savadlılıq baxımından dünyanın inkişaf etmiş ölkələri ilə rəqabət apara bilər. Təhsilin inkişafına xüsusi önəm verən Azərbaycan savadlılıq baxımından, dünyanın inkişaf etmiş ölkələri ilə rəqabət apara bilər. Dövlətimizin başçısının təhsilə göstərdiyi diqqət nəticəsində, bu sahə tamamilə yeni və keyfiyyətli mərhələyə qədəm qoyub. Artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və həyata keçirilir".

Qeyd edək ki, ölkəmizdə olan məktəblərin əksəriyyəti ötən əsrdə inşa olunub. Təbii ki, 70-80 il əvvəl tikilən binalar bu günün tələbinə cavab vermir və çox yararsız vəziyyətdə idilər. Bu gün az sayda belə məktəblər var. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində şagirdlərin təlim şəraiti yaxşılaşdırılıb. Millət vəkili bildirdi ki, məktəb tikintisi sahəsində görülən işlər nəticəsində artıq ölkəmizdə təhsil müəssisəsi ilə bağlı problem yoxdur: "İkinövbəli məktəblərin də sayı xeyli azalıb".

Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə təmin olunan məktəblərdə müasir dövrün tələblərinə uğun olaraq qurulub. Ən əsası isə, milli dəyərlər üzərində qurulan təhsil modeli gənclərin nümunəvi vətəndaş kimi formalaşmasını qarşıya əsas məqsəd qoyub və buna nail olunub.

Millət vəkilinin sözlərinə görə, Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması dövlətin bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. "Ölkəmizdə təhsil sahəsində təkmil qanunvericilik bazası var" - deyən millət vəkili bugünkü inkişafımızda təhsilin gücünün önəmli faktorlardan olduğunu bildirdi: "Əgər yüksək ixtisaslı kadlarımız olmasa, hansısa bir sahəni bu qədər inkişaf etdirməyə nail ola bilərikmi? Təhsil sahəsidə həyata keçirilən islahatlar, artıq yeni mərhələyə qədəm qoymuşdur. Əminliklə bildirək ki, hər bir ölkənin təhsil sisteminin vəziyyəti həmin ölkənin dayanıqlı ardıcıl inkişafını təmin edən amillərdəndir. Ardıcıl olaraq təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin şəxsiyyət kimi formalaşmasına təsirini göstərir. Artıq pis müəllim və pis şagirddən söhbət belə gedə bilməz".

**Nəzakət ƏLƏDDİNQIZI**

---



**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

# Cəmil Həsənli, sən nə vaxt hesabat verəcəksən?

**Aşığın sözü bitəndə, necə "dalay-dalay" deyirsə, "Milli Şura"nın sədri Cəmil Həsənlinin də pulu qurtaranda, qoca vaxtında düşür sosial şəbəkələrin canına. Düşməyi qalsın bir yana, üstəlik, qabaqdangəlmişlik edərək, hakimiyyətdən "hesabat" tələb edir. Guya öz təbirincə, "arqumentli" və "cavabı verilə bilməyəcək" sualları ilə hakimiyyəti "çıxılmaz" vəziyyətə salacaqmış...**

Halbuki bu gün onun özündən hesabatlar, özü də saysız-hesabsız hesabatlar tələb olunur. Elə isə, həmin hesabatları sadalayaq: C.Həsənli, hesabat ver görək, ingilisə ərə verdiyin qızın Günel Həsənli ərinin Yerevanın mərkəzindəki restoran biznesindən nə qədər qatlayıb cibinə qoyur? Bəs sənə o biznesdən nə qədər faiz çatır? C.Həsənli, bir vaxtlar təmsil olunduğun AXCP-ni və "Yurd" şefi Ə.Kərimlini neçəyə sataraq, Milli Məclisə deputatlıq mandatı qazandın? C.Həsənli, deputat olduğun müddətdə hakimiyyətin apardığı siyasətlə bağlı qalaq-qalaq kitablar yazdın, növbəti dəfə deputat seçilməyəndən sonra həmin kitablarından və yazdıqlarından imtina etdin, bu kimi davranışı hansı kişilik, dürüstlük və ədalətli seçim mücəssəməsi səhifəsinə yazmaq olar? Cəmil Həsənli, AXCP-də olarkən, Ə.Kərimli ilə birgə yediyin qazanın işinə necə tüpürdün və parlamentdən çıxar-çıxmaz, tüpürdüyün qazanın dibini yalamağa başladın? C.Həsənli, SSRİ dövründə DTK-nın əlaltısı olaraq, Bakıda neçə nəfər elm adamına qarşı çuğulluq etmisən..?

Bütün bunların hesabatını və cavabını vermək əvəzinə, düşmüsən ortalığa və "hesabat" tələb edirsən. Yəqin, buna qocalığın imkan vermir ki, hakimiyyətin ildə bir neçə dəfə keçirdiyi dövlət müşavirələrində xalqa bütün hesabatların verildiyini xatırlayasan. Nə etmək olar axı, qocalıqdır, özü də yaman qocalıq!

Bilmirsənsə, bilmək istəmirsənsə, xatırladım ki, həmin müşavirələrdə xalqa hesabat verilməklə yanaşı, nöqsanlar barədə də vurğulanır və onların aradan qaldırılması üçün ən qəti addımlar atılır və yaxşı olardı ki, indi sən - Cəmil Həsənli, illərdir, sənə verilən bu sualların cavabını hesabat qismində təqdim edəsən. Edə bilmirsənsə, get "sazını" çalmaqla məşğul ol, "dalay-dalayını" da, başda Ə.Kərimli olmaqla, Gültəkin Hacıbəyliyə, Oqtay Gülalıyevə, Eldəniz Quliyevə, İbrahim İbrahimliyə və o birilərinə oxu. Oxu ki, bəlkə səni "Milli Şura"nın aşıq Cəmili də adlandırsınlar...

---



# "MSK üzvlərinə diplomatik pasportların verilməsi təklifi araşdırılır"

Mərkəzi Seçki Komissiyasının üzvlərinə diplomatik pasportların verilməsi təklifi araşdırılır". SİA-nın xəbərinə görə, bu barədə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Pasportlar haqqında" qanun layihəsinə dəyişikliyin müzakirəsi zamanı çıxışında deyib.

Komitə sədri qeyd edib ki, bu barədə qanunvericilik subyekti ilə danışıqlar aparılır: "Hazırda bu məsələyə baxılır. Əgər təkliflər qəbul edilərsə, biz MSK üzvlərinə də diplomatik pasportlar verilməsi məsələsinə baxarıq"

# İrandan Azərbaycana narkotik vasitə keçirmək istəyən sərhəd pozucuları saxlanılıblar



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd mühafizəsinin etibarlı təmin olunması sahəsində tədbirləri davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 10-da daxil olan əməliyyat məlumatına əsasən, DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Belə ki, həmin gün saat 02:40 radələrində keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayon Arvana kəndi ərazisindəki sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan naməlum iki şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə olunub. Sərhəd pozucuları hərbi qulluqçular tərəfindən saxlanılaraq sərhəd zastavasına gətirilib. Onların üzərinə baxış keçirilərkən əl çantasının içərisində 6 ədəd polietilen bağlamada 5 kiloqram tiryək aşkarlanıb. Saxlanılmış sərhəd pozucularının şəxsiyyəti müəyyənləşdirilib. Onların İran İslam Respublikası vətəndaşları, 1990-cı il təvəllüdlü Pənahi İbrahim Əli və 1993-cü il təvəllüdlü Nəravi Mehdi Əhməd olmaları məlum olub. Fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Dövlət Müstəqilliyi Günü bölgələrdə geniş qeyd olunur

## Ağcabədi

Dünən YAP Ağcabədi rayon təşkilatında 18 oktyabr Dövlət Müstəqilliyinin bərpasının 27-ci ildönümü münasibətilə dəyirmi masa keçirilib.



Tədbiri Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açaraq, bildirib ki, çox çətinliklə əldə edilən, qorunub-saxlanılan Dövlət Müstəqilliyimizi bu gün böyük sevinc və fərəh hissi ilə qeyd edirik. Doğma vətənimiz olan Azərbaycanın bir əsrdə iki dəfə müstəqillik əldə etdiyini vurğulayan rayon təşkilatının sədri birinci dəfə əldə etdiyimiz müstəqilliyimizin xarici müdaxilə və daxili çəkişmələr səbəbindən itirildiyini diqqətə çəkib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci dəfə 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Ali Soveti yenidən Azərbaycanın müstəqilliyi haqqında qərar qəbul etdi. Lakin müstəqilliyini qazandıqdan az sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Ermənistan silahlı qüvvələrinin hərbi müdaxiləsi nəticəsində gedən müharibə, digər tərəfdən, o vaxtkı ölkə rəhbərliyində olan səriştəsiz adamların yeritdiyi səhv siyasət və kreslo savaşına çıxan bəzi siyasi oyunbazların antimilli hərəkəti ölkəmizi müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qoydu. Lakin böyük siyasi təcrübəyə malik olan Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə aradan qaldırıldı, Azərbaycanda hərtərəfli inkişafın təməli qoyuldu, müstəqilliyimizin siyasi və iqtisadi dayaqları getdikcə möhkəmləndi. Xalqın rifah halı yaxşılaşdı və dünyanın aparıcı dövlətləri ilə əlaqələr genişləndi".

Rayon təşkilatı sədri onu da vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin siyasi varisi, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin ardıcıl, məqsədyönlü və xalqın rifah halına, ölkənin iqtisadi inkişafına hesablanan düzgün daxili və xarici siyasəti sayəsində ölkəmizin müstəqilliyi daha da möhkəmlənmiş, Azərbaycan möhtəşəm beynəlxalq tədbirlərin keçirildiyi və dünyada söz sahibi olan bir dövlətə çevrilmişdir.

Tədbirdə YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov, YAP Ağcabədi rayon təşkilatının nəzarət-təftiş komissiyasının sədri Elsevər İsmayılov, rayon təşkilatı qadınlar şurasının sədri Radə Qafarova, Ağcabədi Pedaqoji Kolleci ərazi ilk partya təşkilatının sədri Rövşən Bayramov çıxış edərək, siyasi həmfikirlərini Müstəqillik Günü münasibətilə təbrik edərək, Şərqdə ilk Demokratik Respublikanın hüquqi varisi olan Müstəqil Azərbaycan Respublikasının vətəndaşı olmaqdan qürur duyduqlarını vurğulayıblar.

## Tovuz

Dünən Yeni Azərbaycan Partiyasının Tovuz rayon təşkilatının qərargahında Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü münasibəti ilə elmi-praktik konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə Tovuz rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov açaraq qeyd etmişdir ki, 27 il öncə, Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdir: "Ancaq cəsarətlə demək olar ki, əsl müstəqilliyimiz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Dahi Öndər Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı və Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndərin siyasi iradəsi ilə, qısa vaxt ərzində, Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsülərindən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi".






M.Məmmədov çıxışında onu da bildirdi ki, 2003-cü il oktyabr ayının 15-də Prezident seçilən Cənab İlham Əliyev ötən 15 il ərzində Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb: "Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq Cənab İlham Əliyevin həyat fəlsəfəsidir. Müstəqilliyimizin reallığı ondan ibarətdir ki, Azərbaycan sürətli inkişaf yolunda inamla irəliləyir, onu qarşıda daha möhtəşəm uğurlar gözləyir".

M.Məmmədov rayon ictimaiyyətini qarşıdan gələn Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etdi. Elmi-praktik konfransda YAP Tovuz rayon təşkilatının sədri Məzahir Bayramov "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda, rayon icra hakimiyyəti başçısının müavini Təranə Bayramova "Prezident İlham Əliyev və müstəqilliyimizin son 15 ili" mövzusunda, rayon Gənclər və İdman İdarəsinin rəisi Sahib Ələsgərov "Müstəqil Azərbaycan Respublikasının gənclər siyasəti" mövzusunda məruzələrlə çıxış etmişlər.

## Samux

Dünən YAP Samux rayon təşkilatında "18 Oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü" mövzusunda dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Samux rayon



təşkilatının sədri Gündüz Bayramov 1991-ci ildə yaranmış tarixi şəraitin nəticəsi olaraq, Azərbaycan Ali Sovetinin avqustun 30-da Müstəqillik Bəyannaməsini, oktyabrın 18-də isə müstəqillik haqqında Konstitusiya Atını qəbul etdiyini bildirdi. Qeyd etdi ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı müstəqilliyimizə yeni nəfəs verdi: "Ulu Öndər Heydər Əliyev əvvəlcə vətəndaş müharibəsinin qarşısını aldı, Ermənistanla atəşkəsə nail oldu və Azərbaycanda inkişafın təməli qoyuldu. Azərbaycan Ordusu yenidən təşkil edildi, nizam-intizam gücləndirildi. Mühüm siyasi və iqtisadi islahatlara başlanıldı. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gündən-günə daha da güclənir və qüdrətlənir. Son 15 ildə Azərbaycanın iqtisadiyyatında, hərbi quruculuğunda, elm, mədəniyyət, səhiyyə, təhsil, idman və insanların sosial müdafiəsi sahələrində böyük uğurlar əldə edilib".

Tədbirdə YAP Samux rayon təşkilatının təlimatçısı Emin Şəmmədov geniş məruzə ilə çıxış edərək qeyd etdi ki, 1918-ci ildə Şərqdə ilk demokratik respublikanın yaranması böyük məna kəsb etmiş, lakin 23 aylıq mövcudluğuna son qoyulsa da, müstəqillik ideyası ictimai şüurda həmişə mövcud olmuşdur: "Müstəqil dövlətçiliyimizin bərpası ideyası AXC-nin süqutundan sonrakı mərhələdə də davam etmişdir. Ötən əsrin 80-ci illərinin sonlarında beynəlxalq aləmdə vəziyyətin dəyişməsi, keçmiş SSRİ-də mərkəzdənqaçma meyillərinin yaranması ilə Azərbaycanda da xalq hərəkatı dalğasını gücləndirdi. Görünməmiş miqyas alan bu hərəkatı yatırmaq üçün sovet tankları xalqın üstünə göndərildi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Azərbaycanda törətdiyi vəhşiliklər, günahsız insanların qanının axıdılması xalq hərəkatını milli-azadlıq hərəkatına çevirdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də parlament müstəqllik haqqında Konstitusiya Aktını qəbul etdi".

E.Səmədov çıxışında bugünkü güclü və qüdrətli Azərbaycanın Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin apardığı düzgün və məqsəyönlü siyasətin bəhrəsi olduğunu bildirdi.

## Pirallahı

18 oktyabr - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının "Neft Daşları NQÇİ" ərazi ilk partiya təşkilatında "Müstəqilliyimiz daimidir, əbədidir və dönməzdir " adlı dəyirmi masa keçirib. Dəyirmi masanı giriş sözü ilə açan



"Neft Daşları NQÇİ" ərazi ilk partiya təşkilatının sədr müavini Əhməd Musayev qeyd edib ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımız azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək, beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik-hüquqi və dünyəvi dövlət qurmaq imkanı əldə etdi: "1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atan Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzünə uğrayaraq, soyqırımı və etnik təmizləmə siyasəti ilə üz-üzə qalmışdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və yürütdüyü müdrik siyasət nəticəsində ölkənin məhvolma təhlükəsinə son qoyuldu və dövlətə xalqın birliyi təmin edildi".

Tədbirdə Neft Daşları NQÇİ-nin baş mühəndisi Azər Rüstəmov və rəis müavini Rüstəm İsmayılov çıxış edərək, müstəqilliyimizin ilk illərində ölkəmizdə yaşanan gərginliyin zəngin dövlətçilik təcrübəsinə malik görkəmli siyasi xadim, Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə gəlişinədək davam etdiyini bildiriblər. "Məhz Ümummilli Liderin müdrik rəhbərliyi ilə müstəqilliyimiz qorunub-saxlanıldı, Azərbaycan inkişaf yoluna qədəm qoydu, suveren dövlət kimi beynəlxalq aləmdə özünə layiqli yer tutdu" deyə vurğulanan fikirlərdə, o da qeyd olunub ki, Azərbaycanın müstəqilliyi dönməz və əbədidir.

Daha sonra tədbir iştirakçıları diskussiya şəklində müstəqilliyimizin müxtəlif dövrlərində həyata keçirilən tədbirlərdən, Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin müstəqilliyimizin qorunmasında və inkişaf etdirilməsində misilsiz xidmətlərindən danışıb, müstəqilliyimizin daimi və əbədi olacağına inamlarını ifadə ediblər.

# Ermənistanda keçirilən Frankofoniya sammiti fiaskoya uğradı

## *Elşən Manafov: "Frankofoniya sammitinin Avropa məkanında və dünyada gedən proseslərə ciddi təsir göstərmək imkanları yoxdur"*

***- Elşən müəllim, Ermənistanda Frankofoniya sammiti keçirildi. Bu sammit sülhə çağırış olsa da, əslində, separatizimi və terrorizmi təbliğ edən çıxışlarla yadda qaldı. Fərqli siyasi mövqelərin yaranması nədən irəli gəldi?***

- Ermənistanın bu sammitə qatılması ermənilərin daxil olduğu dil qrupu baxımından anlaşılan deyil. Düzdür, həmin sammitdə Fransa tərəfi və Avropanın bir sıra dövlətləri təmsil olunurdular. Ən əsası, həmin sammitdə Ermənistanın baş nazirinin Qarabağ probleminin prespektivdə tənzimlənməsi ilə bağlı söylədiyi fikirlər onun, bir müddət əvvəl, Düşənbədə Azərbaycan Prezidenti ilə görüşündə səsləndirdiyi fikirlərdən kifayət qədər fərqli idi. Bu da, onu göstərir ki, əslində, Ermənistanın indiki iqtidarı Qarabağ probleminin prespektivdə gələcək həlli ilə bağlı konkret plana və mövqeyə malik deyil. Bu da, ondan irəli gəlir ki, hələ Paşinyan iqtidarı Ermənistan üçün keçid dövrünün iqtidarı anlamında qəbul olunur. Növbədənkənar parlament seçkilərində qalib gəlib, tam mənada, etimad hökumətini formalaşdırmayana qədər Paşinyan ikiüzlü və səmimilikdən uzaq olan siyasət yürüdəcək. Bu baxımdan, Paşinyanla Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı eyni masa arxasında oturub, Qarabağ probleminin gələcək modeli ilə bağlı danışıqlarda nəyə isə ümid göstərmək indiki məqamda inandırıcı görünmür.

***- Fransa ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olsa da, Frankofoniya sammitində ikiüzlülük və ikili standartlara əsaslanan mövqe ortaya qoydu. Fransanın ermənipərəst mövqeyi nə vaxtadək davam edəcək?***



*Müsahibimiz politoloq Elşən Manafovdur*

- Ümumiyyətlə, zaman-zaman ATƏT-in Minsk Qrupunda təmsil olunmuş həmsədr dövlətlərin hər biri ayrı-ayrılıqda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların gedişində ikili mövqe sərgiləyiblər. Fransaya gəlincə, təbii ki, Fransada erməni diasporunun çox güclü mövqeləri və imkanları var. Hər zaman Fransa siyasətçiləri parlament və prezident seçkiləri zamanı erməni diasporasının, seçicilərinin seçkilərin müqəddəratına və gedişinə təsir etmək imkanlarını, bir qayda olaraq, nəzərə alıblar. Yəni bu, Fransanın Cənubi Qafqazla bağlı xüsusi maraqlarından irəli gələn bir məsələ deyil. Çünki Cənubi Qafqazın lider dövləti - həm özünün maliyyə resurslarına, həm ordunun gücünə, həm də iqtisadi potensialı və Avropanın enerji təhlükəsizliyində oynadığı roluna görə, təbii ki, Azərbaycan dövlətidir. Digər tərəfdən, məhz Azərbaycan təkcə Cənubi Qafqazda deyil, Avropa məkanının özündə belə tolerantlıq və multikultural siyasət ənənələri baxımından, etalon oluna biləcək bir ölkədir. Ermənistan isə, qatı millətçi bir dövlətdir. Hətta nəzərə alsaq ki, Paşinyan iqtidarının mədəniyyət nazirinin özü, bu yaxınlarda bəyan etmişdi ki, rus dilinin özünün tədrisinə belə ehtiyac yoxdur. Bu, onu göstərir ki, erməni milləti, siyasətçiləri qatı millətçilik azarına tutulublar və bu ölkədə multikultural və tolerantlıqdan əsər-əlamət yoxdur. Sadəcə olaraq, bu, Fransada keçirilən seçkilərin gedişinə, erməni diasporunun təsir etmək imkanları baxımından, qiymətləndirilir və ona görə də, zaman-zaman fransız siyasətçiləri bu amili nəzərə alırlar.

***- Ümumiyyətlə, Frankofoniya sammitini artıq ölü qurum kimi də qiymətləndirmək olarmı?***

- Frankofoniya sammitinin Avropa məkanında və dünyada gedən proseslərə ciddi təsir göstərmək imkanları yoxdur. Əvvəla, o sammitdə qəbul edilən qərarlar belə ciddi hüquqi sənəd kimi qəbul edilmir. Əgər ATƏT kimi bir təşkilatın qəbul etdiyi qərarlar konsensus yolu ilə qəbul olunursa və ya BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi istiqamətində BMT-nin özü konkret addımlar atmırsa, əslində, beynəlxalq hüquq deyil, beynəlxalq güclərin hüququ işləyirsə, deməli, Frankofoniya sammitində söylənən fikirlər və qəbul edilən qərarlar elə fikir və kağız parçası olaraq qalacaq. Güman etmirəm ki, Qarabağ problemi, ümumiyyətlə, Qafqazla bağlı proseslərə sammitin təsir imkanları olsun. Cənubi Qafqazdakı bütün problemlərin həllinə Rusiyanın təsir imkanları ABŞ və Fransadan kifayət qədər fərqlidir, yetərlidir və güclüdür. Bir sözlə, məhz bu baxımdan, Dağlıq Qarabağ probleminin həlli üçün Rusiya tərəfi ilə danışıqların aparılması daha doğru olardı.

***GÜLYANƏ***

# Bağater Arabulinin "Gündüz yuxuları" Azərbaycan dilində



Azərbaycan Tərcümə Mərkəzinin yeni nəşri - tanınmış gürcü şairi Bağater Arabulinin "Gündüz yuxuları" şeirlər kitabı işıq üzü görüb. Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, gürcü poeziyasının parlaq nümunələrini əks etdirən kitaba şairin lirik etüd, fraq-mentlər, mənzum hekayə və pritça üslubunda qələmə aldığı şeirləri daxil edilib. Əsərləri Azərbaycanda ilk dəfə nəşr olunan şairin şeirlər toplusunu dilimizə şair-tərcüməçi Allahverdi Təkləli çevirib. Kitabın redaktorları Etimad Başkeçid və Salam Sarvandır.

# Türkiyəli professor: Naxçıvanda beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunması bizi çox sevindirdi



Bizə dost və qardaş olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olmaqdan, "Elekroenergetika mühəndisliyinin texniki və fiziki problemləri" mövzusunda XIV beynəlxalq elmi konfransın Naxçıvanda keçirilməsindən çox məmnunam. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Ankara Qazi Universitetinin professoru Cengiz Taplamacıoğlu deyib.

"Elekroenergetika mühəndisliyinin texniki və fiziki problemləri" konfransının ilk qurucu və fəal üzvlərindən biriyəm. 2002-ci ildən keçirilən bu konfrans bu günədək Azərbaycan, Türkiyə, İran və bir sıra Avropa ölkələrində təşkil edilib", - deyən Cengiz Taplamacıoğlu vurğulayıb ki, konfransın keçirilməsində məqsəd iştirakçı ölkələrdəki elektroenergetika problemlərini müzakirə etmək, onların həlli yollarını tapmaq, bu mövzuda müzakirələr və təcrübə mübadiləsi aparmaqdan ibarətdir. Çankırı Karatekin Universitetinin professoru Murat Arı isə deyib: "Naxçıvanda bizi qonaqpərvərliklə qarşıladılar. Bu beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunması bizi çox sevindirdi. Onu da deyim ki, buraya gəlməkdə digər məqsədim Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq protokolu imzalamaqdır. Həmin əməkdaşlıq protokoluna əsasən, Naxçıvan Dövlət Universitetinin tələbələri Türkiyədə təhsil almaq və təcrübə qazanmaq imkanları əldə edəcəklər".

# Ermənistanda anarxiya hökm sürür

## *Hakimiyyətin küçədəcə xalqın ixtiyarına buraxılması anarxiya reseptidir*




***Amerikanın "Washington Times" nəşri ABŞ-ın Bəhreyndəki keçmiş səfiri, Dövlət Departamentinin eks-spikeri Adam Erelinin "Ermənistanda anarxiya" adlı məqaləsini dərc edib. Erelinin məqaləsi Ermənistanda qıcıq doğurub və hətta bu məqalə barəsində bir çox erməni saytlarında da bəhs olunur.***

Məqalə müəllifi Ermənistanda cərəyan edən hadisələri hökm sürən anarxiya kimi dəyərləndirir və qeyd edir ki, həmin ölkə, hakimiyyətin olmaması səbəbindən, qanunsuzluq və ya siyasi iğtişaş halındadır. Müəllifin fikrincə, Ermənistanın institusional parçalanmasının nəticələri yaxşı heç nə vəd etmir. O, qeyd edir ki, hazırda baş verənlər Ukraynadakı "narıncı inqilabı" və Gürcüstanda Mixail Saakaşvilinin hakimiyyətə gəlməsini və getməsini xatırladır.

### Əvvəlki parlament seçkilərini qanunsuz hesab edən Nikol Paşinyan özü də eyni sərt taktikadan istifadə edir

Ereli Nikol Paşinyanın 8 may tarixində baş nazir kimi hakimiyyət kürsüsünə gəldiyini yada salır və mərkəzi meydanda çoxlu sayda tərəfdar toplayaraq, bununla, parlamenti hədələməsini də, xüsusilə, qeyd edir. Qeyd edir ki, hazırkı baş nazir həmin hadisələr zamanı onu baş nazir seçmələri üçün parlamenti kütlənin keçirəcəyi davamlı tətillərlə və mitinqlərlə hədələyirdi.

Məqalədə eks-spiker nəzərə çatdırmaq istəyir ki, özü-özünü vəsifəyə elan edən "xalq namizədi", sistemli olaraq, Ermənistanın aparıcı təşkilatlarını məhv edir. Bu kontekstdə qeyd olunur ki, Paşinyan özünün 100 günlük hakimiyyətinə həsr edilmiş mitinqinə tərəfdarlarını toplayıb və yenə də daxili auditoriyaya hesablanmış pafoslu çıxışlarla yadda qalıb. Baş nazir populist şəkildə kütləyə müraciət edərək, Ermənistanda koalisiya hökuməti yoxdur və bütövlükdə, hakimiyyətin birbaşa xalqa məxsus olduğunu bildirməklə, yenə də toplaşanlardan istifadəyə niyyətlidir.

Paşinyanın Ermənistan küçələrini dövlət qurumları, ədliyyə sistemi və parlament əleyhinə meydana və platformaya çevirdiyini bildirən müəllif, onu da nəzərə çatdırır ki, baş nazir əvvəlki parlament seçkilərini səslərin alınması səbəbi ilə qanunsuz hesab edir. Lakin qınasa belə, özü də eyni sərt taktikadan istifadə edir. Keçmiş prezident Robert Koçaryanın həbsini və keçmiş müdafiə naziri Mikael Harutyunyanın tutulması qərarı ilə eyni səhvi edir.

### Ermənistanın siyasi səhnəsində pozitiv dəyişikliklər müşahidə olunmur

Ereli yazır ki, Paşinyan vəzifəsini icra etməyə başladıqdan sonra üç ay keçməmiş siyasi rəqiblərinə qarşı çıxdı və bu, sadəcə, hakimiyyətdən sui-istifadə hesab olunur. Məqalə müəllifi, xüsusilə. qeyd edir ki, hakimiyyətin küçədəcə xalqın ixtiyarına buraxılması anarxiya reseptidir. Hətta erməni politoloqu Qevorq Arutyunyanın statuslarına müraciət edən müəllif qeyd edir ki, ermənilərin öz politoloqları belə inqilabçı Paşinyanın baş nazir Paşinyana çevriləcəyinə inanmırlar. Çünki hələ də, Ermənistanın siyasi səhnəsində pozitiv dəyişikliklər müşahidə olunmayıb.

Göründüyü kimi, işğalçı ölkədə qanunun aliliyinə də, demokratiyanın mövcudluğuna da, haqlı olaraq, inanılmır. Nəinki Ermənistanın öz politoloqları, hətta kənardan müşahidə edənlər belə proseslərin demokratiyaya zidd, qanunun aliliyinə uyğun olmayan şəkildə cərəyan etdiyini gizlətmirlər. İdarəetmənin və hakimiyyətin küçəyə daşınmasının acınacaqlı nəticələri proqnozlaşdırılır. Açıq şəkildə etiraf olunur ki, işğalçı ölkədə anarxiya hökm sürür.

***İnam HACIYEV***

# AXCP və “REAL” sədrləri Ermənistan parlamentində deputat olacaqlar

*Erməni siyasətini Azərbaycana “transfer” etmək üçün bu qədərmi alçaltmaq lazımdır?*

***Ermənistanda cərəyan edən hadisələrdən, necə deyərlər, həvəsə gələn dağıdıcı müxalifət düşərgə “liderləri” indi də Nikol Paşinyanın addımlarından özlərinə örnək götürməyə cəhd göstərirlər. Məsələ ondadır ki, hələ bu ilin yazından, Ermənistanda Nikol tərəfindən başladılan “məxməri inqilab” da AXCP, Müsavat, “REAL” və s. kimi siyasi müxalif təşkilatları cuşa gətimişdi.***


Sevinc Osmanqizi был(-а) в прямом эфире.
9 ч.
Azərbaycanda növbədənkənar parlament seçkiləri olmalıdırmı? Bunu istəyən və istəməyənlər kimlərdir? Bu seçkilər Azərbaycan parlamentini yaxşıya dəyişə biləcəkmi? Azərbaycanda ədalətli və azad parlament seçkiləri keçirmək mümkündürmü? Parlamentin yaradılmasının 100 illiyini biz necə bir parlamentlə qeyd edəcəyik? Bu parlamenti əvəz etmək üçün nə lazımdır?
Verilişdə ReAl partiyasının sədri İlqar Məmmədov və AXCP sədri Əli Kərimlinin məsələyə baxışı ilə tanış olursuz.
YouTube h... Ещё

Hətta bu kimi olayların ölkəmizdə də “baş verə bilməsi ehtimalından” dəm vurub, utopik xəyallara dalan radikallar az qala, Paşinyanı özlərinə ustad kimi seçmişdilər. Əslində, burada hər hansı bir təəccüblü məsələ yoxdur. Çünki biz, bu kimi köhnə və naftalin qoxusu verən “müxalifət”in Gürcüstan, Qırğızıstan və Ukrayna timsalından da çıxış etdiklərini görmüşük. Sadəcə, onların xam xəyalları heç bir “inqilab”ın baş verməsi ilə “REAL”laşmamış qaldı.

## Sevinc Osmanqızının sifariş əsaslı təxribatçılığı və sabotajı!

Bu gün isə, artıq Avropada müxtəlif anti-Azərbaycan qüvvələrinə işləyənlər növbəti sifarişlərini alıblar. Onlardan biri də Sevinc Osmanqızının internet üzərindən çıxdığı canlı yayım vasitəsi ilə “növbədənkənar parlament seçkiləri” ətrafında süni ajiotaj yaratmaq cəhdləridir. O da əbəs deyil ki, sözügedən gərəksiz mövzusunda onun qonaqları AXCP sədri Əli Kərimli ilə “REAL” partiyasının sədri İlqar Məmmədov olub. Söz yox ki, parlamentimizin 100-cü ildönümünü əllərində bayraq edərək, mövcud demokratik parlamentin “dəyişdirilməsi” məsələsi üzərində manipulyasiya edən bu tiplər, əsas olaraq, ictimai rəydə çaşqınlıq yaratmağa səy göstəriblər.

## Bu parlamentdə Əli Kərimli də, Cəmil Həsənli də deputat kürsüsündə oturublar

Yeri gəlmişkən, bu gün ölkə parlamentini bəyənməyən AXCP sədri Ə.Kərimli orada deputat kimi fəaliyyət göstərib və bu gün onun həmin parlamenti özünəməxsus tərzdə “qeyri-legitim” hesab etməsi, ümumiyyətlə, heç bir məntiqə sığmır. Eləcə də, onun siyasi kuklası, “Milli Şura”nın sədri Cəmil Həsənli də parlamentdə deputat kürsüsündə oturub və həmin vaxtlar Ə.Kərimlinin sağına da, soluna da “baltalar” vururdu. Bütün bunlar isə, ilk öncə, belə qənaətə gəlməyə zəmin yaradır ki, bu gün xarici ağaları qarşısında açıq-aşkar nökərçilik edənlər bu dəfə də erməni maraqlarından, Ermənistanın mövcud hakimiyyətinin siyasətindən bəhrələnməyə çalışırlar. Yəni bilavasitə erməniçiliyin əsasında çıxışlar edirlər.

## İlqar Məmmədov bir vaxtlar “DQR”in danışıqlarda iştirakından dəm vururdu, eynilə Nikol Paşinyan kimi...

“REAL” sədri İ.Məmmədova gələndə isə, bu fərdin dəfələrlə erməni marağından çıxış etməsinin şahidləri olmuşuq. Hələ azadlıqda olarkən, o, guya “müasir siyasət tandemin”dən çıxış edərək, məhz Nikol Paşinyanın Dağlıq Qarabağ probleminin həll olunması istiqamətində aparılan müzakirələrdə “DQR”in danışıqlar masasına oturması təklifini səsləndirmişdi. Əgər o da bu gün Ermənistanda baş verən siyasi böhrandan və Paşinyanın növbədənkənar seçkilər keçirməyindən danışırsa, daha dəqiq desək, bu siyasi məsələnin Azərbaycana keçid etməsini arzulayırsa, deməli, ortada gizli heç nə qalmır - onlar ermənilərin siyasətini dəstəkləyir və ermənilərin siyasi maraqlarını ölkəmizə idxal etməyə çalışırlar!

## Sevinc Osmanqızının cavab verən sualları...

Daha bir maraqlı nüans budur ki, Sevinc Osmanqızının verdiyi sualların hər biri, bilavasitə cavab xarakterlidir. Təkcə həmin suallara nəzər salaq.

“Azərbaycanda növbədənkənar parlament seçkiləri olmalıdırmı”, yaxud “bunu istəyən və istəməyənlər kimlərdir”, ya da “Azərbaycanda ədalətli və azad parlament seçkiləri keçirmək mümkündürmü” və ya “parlamentin yaradılmasının 100 illiyini biz parlamentdə necə qeyd edəcəyik” və bu kimi təxribatçı xarakterli suallar və nəhayət, sabotajı sualların pik həddi - “Bu parlamenti əvəz etmək üçün nə lazımdır” sualı gəlir.

Göründüyü kimi, hər bir sualın kökündə dövlətçilik maraqlarımıza qarşı çağırışlar var. Bu suallar isə, birbaşa İlqar Məmmədov və Ə.Kərimli kimi satqınlara verilir, özü də Sevinc Osmanqızı tərəfindən. Yəni ortada qaranlıq məqam qalmır.

## Onların yeri Paşinyanlı Ermənistan vətəndaşlığıdır!

Beləliklə, fakt budur ki, illərdir dövlətin apardığı çoxşaxəli və uğurlu siyasətinə qarşı siyasi dəllallıq edənlər indi də Paşinyan amilindən siyasi vəcdə, ya da şəhvətə gəliblər. Bu şəhvətlərini öldürmək üçün isə, bu cür siyasi fahişəliklərə əl ataraq, elə özləri də özlərini ifşa edirlər. Hər halda, daha yaxşı olardı ki, belələri, uzağı, dekabr ayına qədər Azərbaycan vətəndaşlığından imtina edib, Paşinyanlı Ermənistan vətəndaşlığı üçün müraciət etsinlər və istədikləri qədər “demokratik” erməni parlamentində seçkilərə qatılıb, deputat seçilsinlər. Onların yeganə çıxış yolları da, məhz budur!

**Rövşən RƏSULOV**

# “Belə hərəkətlər pislənilir”

*Mütəllim Rəhimli: “Əli Kərimli və Cəmil Həsənli kobud səhvlərə yol verirlər”*

***Son günlərin siyasi arenada diqqətçəkən mövzularından bir də, hazırda İngiltərədə bloggerliklə məşğul olan və aradabir müxalifətin müxtəlif simasızları haqqında “maraqlı” videolar paylaşan Qurban Məmmədovun AXCP sədri Əli Kərimlinin qəzəbinə tuş gəlməsi və ötən həftə onun “Milli Şura” üzvlüyündən xaric olunmasıdır.***



Bütün bunlar bir daha “Milli Şura”nın əsas qisasçı dəstəsinin rəhbərinin Ə.Kərimli olduğunu təsdiqləyir. “Ədalət” partiyasının sədr müavini Mütəllim Rəhimli bizimlə söhbətində “Milli Şura”da baş verənlərin ciddi fəsadlar yaradacağını və az müddət sonra qurumun dağılacağını söylədi: “Ümumiyyətlə, siyasi münasibətlərdə tolerantlıq çox böyük və vacib göstəricidir. Əgər siyasi partiyaların daxilində və siyasi partiyalararası yaradılmış qurumlarda bu tolerantlıq gözlənilməzsə, hər hansı bir irəliləyişin olması çətindir. Bu, həm də siyasi mədəniyyət nümunəsidir. Əgər siyasi qurumlarda fərqli fikirlər söyləyən şəxs varsa, ona diqqətlə qulaq asılmalıdır və dediyi həqiqətlər nəzərə alınmalıdır. İnkişaf da fərqli fikirlərin mövcud olduğu yerdə gedir. Əgər fərqli fikirlər birbaşdan susdurulursa, o qurumlarda inkişaf ola bilməz. Bu baxımdan da, düşünürəm ki, Qurban Məmmədovun “Milli Şura”dan çıxarılması tələskən verilmiş qərardan başqa bir şey deyil. Buna görə də, bu amil “Milli Şura”ya növbəti mənfi münasibət gətirəcək. Ə.Kərimli və Cəmil Həsənli kobud səhvlərə yol verirlər. Onlar düşünülməz addımları ilə “Milli Şura”nı avtoritarlığa sürükləyirlər”.

“Sizcə, Qurban Məmmədov Əli Kərimliyə və Cəmil Həsənliyə qarşı yaydığı ittihamlarını bir qədər də genişləndirəcəkmi” sualına cavab olaraq, M.Rəhimli bildirdi ki, müxalifət liderlərinin bir-birinə qarşı ittihamlar irəli sürməsi pislənilməlidir: “Qarşılıqlı ittihamlar hansısa bir problemi həll etmir. İkinci bir tərəfdən də, ictimai fikir bu cür tənqidlərin və təhqirlərin ünvanlarını qınayır. Bu cür mövqe sərgiləyənlər sifariş yerinə yetirmiş olurlar. Müstəqil mövqeli, sağlam siyasət yürüdən şəxs və partiya liderləri ittiham xarakterli siyasətdən uzaq olar. Onları üz-üzə qoyan bölə bilmədikləri maraqlarıdır. Ona görə də, siyasi liderlər bəzən öz aralarında bu cür konflikdə gedirlər və kiminsə məğlub olmasını və yaxud kiminsə qələbə qazanması kimi hallarla rastlaşdırılır. Əslində, siyasi liderlər arasında bu cür konfliktlərin olması yaxşı hal deyil. Qarşılıqlı ittihamlar və bir-birini kimlərəsə işləməkdə suçlamaq və təhqir etmək yolverilməzdir”.

“Ümumiyyətlə, xaricdəki mühacir azərbaycanlılar daxildəki dağıdıcı müxalif qruplara müəyyən formada işləyir və onların sifarişlərini yerinə yetirirlər. Sizcə, qarşılığında xaricidəki mühacirlər nə qazanırlar” sualına cavab olaraq, M.Rəhimli bildirdi ki, xaricdəki həmin mühacirlər ölkə daxilində kimlərinsə sifarişlərini yerinə yetirirlər: “Yaxşı olardı ki, onlar bu cür addımlar atmasınlar. Çünki onlar tərəfindən atılan hər bir addım Azərbaycan haqqında xaricilərin fikrinin formalaşmasına təsir göstərir. Ona görə də, belə hərəkətlər pislənilir”.

**GÜLYANƏ**

## “Kütlənin təzyiqi altında Paşinyan hər şeyə nail ola bilir”



“Ermənistanın baş naziri Nikol Paşinyan küçədən gəlmiş adamdır. Hətta o bu gün Konstitusiya aktlarını, müddəalarını da küçənin təzyiqi altında dəyişdirir”. Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, bu gün Ermənistanda fəaliyyət göstərən parlamentdə seçkilər bir il bundan əvvəl baş vermişdi: “Paşinyan əhalini teatr meydanına yığmaqla və oradan da parlamentin binasını mühasirəyə almaqla dekabrda yeni parlament seçkiləri keçirmək haqqında qərar qəbul etməyə və özünün isə istefaya gedəcəyi haqqında qərar qəbul etməyə məcbur etdi. Yəni kütlənin təzyiqi altında Paşinyan hər şeyə nail ola bilir. Çünki köhnə hakimiyyət həqiqətən də əhalinin ciddi etirazlarına səbəb olmuşdu və əhali “Qarabağ klanı”ndan bezmişdi. Təbii ki, Paşinyanın indi etdikləri də doğru deyil. Ona görə ki, hakimiyyətin mənbəyi xalq da olsa, hakimiyyət dəyişiklikləri bəlli bir prosedur çərçivəsində baş verir. Əgər dekabrda keçiriləcək seçkilərdə Paşinyanın komandası qələbə çalacaqsa, parlamentdə əksəriyyəti özününkülərdən formalaşdıra biləcəksə o zaman Paşinyanın hakimiyyəti leqitimləşəcək və qanuni xarakter daşıyacaq. Bu zaman Paşinyanın yeni hakimiyyəti dünya tərəfindən normal qarşılanacaq”.

## “Ermənistanda baş verən hadisələr Azərbaycanın xeyrinədir”

“Ermənistan baş naziri Nikol Paşinyan əgər istefa verərsə, onun hakimiyyətdə qalması və onun tərəfdarlarının parlament seçkilərində çoxluq qazanması şübhə altındadır. Çünki qısa müddətdə də olsa o nəsə bir yenilik etməli idi və dəyişiklik olmalı idi. Amma heç bir dəyişiklik olmadı. Sosial problemlər qalmaqda davam edir və xalqın güzəranı gündən-günə pisləşir”. Bunu SİA-ya açıqlamasında politoloq Məhərrəm Zülfüqarlı deyib.

Onun sözlərinə görə, Paşinyan hakimiyyətdə qalmaq istəsə gərək istefa verməsin və digər sələfləri kimi zor gücünə hakimiyyətdə qalsın: “Amma bütün hallarda onu istefası və dekabrda Ermənistanda keçiriləcək parlament seçkiləri birmənalı qarşılanmır. Artıq Rusiyaya qarşı da bir sıra addımlar atılmaqdadır. Hansı ki, Ermənistanın Rusiyanın forpostu olan ölkədir.

Məsələn, Rus dram teatrının bağlanması məsələsi qoyulub ki, bu da birbaşa rəsmi Moskvaya qarşı atılan addımdır. Ona görə də Rusiyanın sakit davranmağına baxmayaraq Paşinyan rejiminin qərblə əlaqələrinin olması, hətta Avropa Birliyinin ona 260 milyon yevro (euro) verəcəyini vəd etməsi və bunların da onların diqtəsi ilə işləməyə məcbur olması və s. onu göstərir ki, Rusiya üçün Paşinyan rejimi arzuolunan deyil. Ona görə də Paşinyanın istefasından sonra Rusiya çalışacaq ki, orada özünəuyğun adamları hakimiyyətə gətirsin. Bütün hallarda düşmən ölkədə baş verən bu cür hadisələr Azərbaycanın xeyrinədir. Rusiya artıq sürüşkən bir dövlətin, xalqın arxasında dayanmağı lazım bilməyə də bilər. Düşünürəm ki, dekabr seçkilərindən sonra kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq Ermənistan sürətlə zəifləyəcək. Çünki bu xalq artıq küçələrə öyrəşib”.

# XIX əsrdə dini və dünyəvi məktəblərdə qızların təhsil hüququ

***Azərbaycanda milli ibtidai məktəblərin əsası sayılan dini məktəblərin arasında xalqa maarif işıqları gətirən, milli mədəniyyətin tərəqqisində, heç şübhəsiz, müsbət rol oynayan təhsil ocaqları da az deyildi. Keçən əsrin görkəmli ziyalılarının, yazıçılarının və qabaqcıl şəxsiyyətlərinin əksəriyyəti öz ilk təhsillərini belə məktəblərdə almışlar. Bir cəhəti də unatmaq lazım deyildir ki, dünyəvi elmləri tədris etmək, təlim-tərbiyə işini lazımi səviyyədə qurmaq belə kiçik və vəsaitsiz məktəblərdə qeyri-mümkün idi. Əvvələn bu məktəblərdə ev təhsili görmüş şəxslər və ya mollalar dərs deyirdilər. Digər tərəfdən, həmin məktəbləri elə imkanı yox idi ki, başqa fənn müəllimləri də saxlaya bilsin. Lakin bununla belə, həmin xüsusi məktəblərin və mollaxanaların içərisində elələri vardı ki, qabaqcıl təlim-tərbiyəyə meyil edir, dünyəvi elmlərə maraq göstərirdi. Bu, əlbəttə, keçən əsrin mütərəqqi maarifçilik hərəkatının və qabaqcıl pedaqoji fikrin, nümunəvi təlim-tərbiyə üsullarının təsiri idi.***

Xüsusi evlərdə təşkil edilmiş bir sıra savad məktəbləri ümumən mollaxanaların sırasında itib-batdığından, onlar tədqiq olunmamış qalmışdır.

Sabir Gəncəli yazır: “Tarixə obyektiv yanaşıldıqda, daha diqqətlə tədqiqat aparıldıqda, məlum olur ki, hələ keçən əsrin ortalarında Azərbaycanın şəhər və kəndlərində uşaqlara dünyəvi bilikləri öyrətməyə, yaxşı savad verməyə səy göstərən aşağı dərəcəli belə ibtidai məktəblər mövcud olmuşdu.

Bir sıra tarixi mənbələr göstərir ki, hələ keçən əsrin 50-ci illərinin əvvəllərində Şamaxı əyalətində 25, Bakı və onun ətraf kəndlərində 16, Şuşada 9, Qubada 5, Naxçıvanda bir neçə xüsusi məktəb və mollaxana vardı. Bu məktəblərdə ərəb, fars, Azərbaycan dili və yazı təlim edilirdi. Şagirdlər ərəb dili vasitəsilə müsəlman qanunçuluğunu, fars və Azərbaycan dilləri vasitəsilə Şərq ədəbiyyatından bəzi nümunələri öyrənirdilər. İbtidai təhsil verən məktəblərdə təlim üslubu belə qurulmuşdu:

1. İlk əvvəl dörd ərəb hərfi öyrədilirdi (əzbər).
2. Bir neçə həftədən sonra “əbcəd” keçilirdi. (Əbcəd heç bir mənası olmayan səkkiz süni sözdür).
3. Bir qədər sonra şagird özü oxuyan “kitabxana” olurdu.
4. Qurandan sonra fars dilində “Çərəkə” keçilirdi. Bu kitab dörd fəsildən ibarətdir.
5. “Çərəkə” oxunub qurtarandan sonra Hafizin, Füzulinin, Nəvainin və başqa Şərq şairlərinin şeir kitablarından oxu keçilirdi”.

Hələ dünyəvi məktəblərin Azərbaycanda yenicə intişar tapmağa başladığı bir dövr üçün bunlar mütərəqqi hadisə sayılmalıdır. Heç şübhəsiz, həmin xüsusi məktəblərin içərisində qız məktəbləri də mövcud idi. Bunu bəzi yazılı mənbələr və arxiv sənədləri də təsdiq edir.

1850-ci ildə Güllübəyim adlı bir azərbaycanlı qadın Şamaxıda öz evində xüsusi qız məktəbi açmışdı. Tiflisdə nəşr olunan “Qafqaz xadimləri lüğəti”nin 1896-cı il buraxılışında həmin məktəb haqqında verilmiş məlumat diqqəti cəlb edir. Burada deyilir ki, Güllübəyim Şamaxıda anadan olmuş, təhsilini evdə atasından və xüsusi müəllimlərdən almışdır. Onun atası Mir Mahmud kişi dövrünün açıq fikirli adamlarından olmuşdu. O, doğma qızında maarifə böyük şövq oyatmışdı. Maarif və mədəniyyəti sevən Güllübəyim 1850-ci ildə öz evində xüsusi məktəb açmışdı. Məktəb 1863-cü ilədək fəaliyyət göstərmişdir.

S.Gəncəlinin qeyd etdiyi kimi, dördillik ibtidai məktəb həcmində bilik verən, bu qız təhsil ocağında şəriət, ana dili, hesab, fars dili, tarix və nəğmə öyrədilirdi. 1852-ci ildə Qafqazın bir sıra yerlərində, həmçinin, Şamaxıda olmuş V.T.Stepanova yazırdı: “Mənə dedilər ki, Güllübəyim adlı gənc bir tatar xanımı evində xüsusi məktəb açmışdır. Müəllimə olmaq etibarı ilə, bu, məni çox maraqlandırırdı. Güllübəyim xanımın əri Hacı İsmayılı axtarıb tapdırdım və evinə getməyə icazə istədim. Ertəsi gün səhər rus və tatar dillərini bilən bir xanımla Güllübəyimgilə getdim. Bu, 25-28 yaşlarda uca boylu, qaraqaş, qara gözlü, uzun hörüklü, olduqca gözəl bir xanım idi. O, məni son dərəcə mehribanlıqla qarşıladı. Güllübəyim xanımın məktəbi iki kiçik otaqdan ibarət idi. Şagirdlər gözəl xətlə yazır, rəvan oxuyurdular. Onların çəkdiyi şəkillər və tikdikləri tikmələr xoşuma gəldi. Qızlar nəğmə dərsində 3-4 mahnı oxudular. Şərq musiqisini bilməsəm də, deyə bilərəm ki, gözəl səsləri vardı, xüsusilə, müəllimə xanımın özü yaxşı oxuyurdu. Mən, belə bir müəllimənin adi ev xanımı olduğuna inana bilmədim.

Güllübəyim kimi cəhalətin, fanatizmin qalın dumanları arasından Azərbaycan qızlarına maarif ziyası saçmağa çalışan nəcib və xeyirxah təbiətli qadınlar tarixdə az olmamışlar.

Keçən əsrin 50-ci illərində Bakıda da ilk xüsusi qız məktəbləri açılmışdı. Məşədi Səkinə və Xırdaxanım kimi ev təhsili keçmiş, tərəqqipərvər qadınlar çox böyük çətinliklərlə üzləşsələr də, öz evlərində xüsusi qız məktəbləri açmağa nail olmuşdular. Bu kiçik savad məktəblərində şəriət, ana dili, hesab, hüsnxətt və fars dili təlim edilirdi. Valideynlərin nəzərində məktəbin nüfuzunu artırmaq məqsədilə kasıb uşaqlara məişət üçün lazım olan evdarlıq və əl işi də öyrədilirdi.

Ayrı-ayrı evlərin, məscidlərin bir küncündə zəif şamlar kimi közərən belə kiçik 5-10 nəfərlik məktəbciklər günü-gündən genişlənən maarifçilik hərəkatında öz əks-sədasını yarada bilmirdi. Azərbaycanlı qızlar üçün dövlət tərəfindən rəsmi qız təhsil ocağının açılması üçün tərəqqipərvər ziyalılar çox çalışdılar və təşəbbüslər etdilər. 80-cı illərin əvvəllərində Tiflisdə ana dilində təlim verəcək bir qız məktəbinin yaradılması fikri meydana çıxdı.

Həmin illərdə Tiflisdə müsəlmanların xeyriyyə cəmiyyəti yaradıldı. Cəmiyyət azərbaycanlı qızlar üçün ibtidai məktəb də açdı. Ancaq cəmiyyətə varlılar tərəfindən kömək olmadığı üçün o, get-gedə maddi çətinlik qarşısında qaldı və dağıldı.

Maarifə və mədəniyyətə can atan şəxslər hökumət idarələrinə xahişnamələr yazıb 1870-ci il 24 may “Əsasnamə”sinə əsasən, Tiflisdə nümunəvi ali qız məktəbi “jenskoe uçilişe” açılmasını irəli sürdülər. 1881-1882-ci illərdə Qafqaz Təhsil Dairəsinin Rusiya Maarif Nazirliyinə, Qafqaz Canişinliyinə, Rusiya Maliyyə Nazirliyinə dəfələrlə məktublar yazırdı.

Maliyyə nazirinin Qafqaz İşlər Komitəsinin rəisinə 1881-ci il 22 dekabr tarixli cavab məktubundan məlum olur ki, maarif nazirliyi Tiflisdə müsəlman qızları üçün məktəb açılmasına, siniflərin tədris avadanlığı ilə təchiz edilməsi üçün yerli gəlirdən 5000 manat ayrılmasına, məktəbin saxlanılması üçün ildə 34990 manat vəsaitin xərclənməsinə etiraz etmir. Amma məktəbdə tədris fənlərinin 14-ə qədər müəyyən edilməsini müsəlman qızları üçün artıq sayır. Çünki qızlar rusca bilmirlər və onlar həmin fənləri mənimsəməkdə çətinlik çəkirlər. Hazırlıq siniflərində dərs saatlarının 24, qalan siniflərdə 28-33 saat arasında olması da naziri qane etmir.

Nazir fənlərin və həmçinin, dərs saatlarının və məktəb üçün istənilən vəsaitin azaldılmasını təklif edir.

Maarif nazirinin maliyyə nazirinə 1882-ci il 17 sentyabr tarixli məktubunda oxuyuruq: “1881-ci il iyun ayında Tiflisdə Zaqafqaziya müsəlman qızları üçün açılması nəzərdə tutulan məktəbin təşkili və burada ümumtəhsil fənlərindən olan bəzi peşə fənlərinin də keçilməsi zəruridir. Bunun üçün Qafqaz Təhsil Dairəsi belə təklif edib ki, Qafqaziya Müəllimlər Seminariyasının direktorundan, həmin seminariyanın tatar (Azərbaycan) inspektorundan, fəxri müsəlman şəxslərdən ibarət komissiya yaradılsın. Komissiya məktəbi təşkil etmək üçün əsasnamə və ştat müəyyən etsin”.

Komissiya “Əsasnamə”nin layihəsini, məktəbdə dərs deyəcək müəllimlərin və işçilərin ştat cədvəlini hazırlamışdı. Qafqaz ölkə baş idarəsinin rəisi yanında həmin komissiyanın məlumatı dinlənilmiş, Zaqafqaziya Şeyxül İslamının və Müftisinin məktəbin açılması barəsindəki razılığı - qərarı tələb edilmişdi. Nəticədə, 1882-ci ildə Tiflisdə Müsəlman Qız Məktəbinin açılması zəruriliyi qeyd olunurdu.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***









*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

**Son səhifə** **17 oktyabr**


## Piylənmə qadınlarda bağırsaq xərçənginə səbəb ola bilər

Mütəxəssislər 1989-cu ildən 2011-ci ilədək 25-44 yaş arası 85 min qadının analizlərinin nəticələrini təhlil ediblər. Hər 2-4 ildən bir iştirakçılar öz çəkiləri, həyat tərzləri və ümumi sağlamlıq vəziyyətləri barədə mütəxəssislərə məlumat veriblər. Bu müddət ərzində 50 yaşa qədər 114 qadında koloretal xərçəng (yoğun və düz bağırsaq xərçəngi) müəyyən edilib.

AZƏRTAC Novosti Mail.ru saytına istinadla xəbər verir ki, tədqiqatlara əsasən bədən kütlə indeksi yüksək olanlarda koloretal xərçəngin yaranma ehtimalının təxminən iki dəfə artdığı müəyyən edilib. Bu, irsi xərçəng xəstəliyinə meyilliliyi olmayanlara da şamil edilir. Tədqiqatçılar qeyd ediblər ki, 50 yaşa qədər yaranan koloretal xərçəngə çox nadir hallarda rast gəlmək olar. Lakin, adətən insanların bu yaşda ümumi skrininq testlərdən keçməməsi xəstəliyin daha ağır formalarda aşkar olunmasına gətirib çıxarır. Alimlərin fikrincə iştirakçıların hamısı normal bədən kütlə indeksinə sahib olsaydılar 22 faiz halda xəstəliyin qarşısını almaq mümkün olardı.

## Diyetoloq: Kökəlmək üçün dərman preparatları qəbul edilməsi təhlükəlidir

Çəkisini azaltmaq istəyənlərlə yanaşı onu artırmaq arzusunda olanlar da var. Diyetoloqların köməyi ilə kökəlməyə çalışanların sayı artsa da, bunu ev şəraitində kor-korana şəkildə edənlər də tapılır.

Diyetoloq Ləman Süleymanovanın AZƏRTAC-a verdiyi məlumata görə, bədən çəkisini özbaşına artırmaq istəyənlər bəzən ciddi xəstəliklərə tutulur və ya həddsiz dərəcədə kökəlirlər. O, həmin prosesin nəzarət altında və xüsusi proqramla aparılmalı olduğunu bildirib: "Çox vaxt çəki artırmaq üçün müxtəlif preparatlar qəbul edir, iynə vurdururlar. Xüsusilə yeniyetməlik dövründə belə üsullardan istifadə etmək yolverilməzdir. Bu, ciddi hormonal pozuntuya səbəb ola bilər. Bir qədər yaşlı xanımlarda isə bu növ qaydalara əməl edilməməsi ginekoloji və mədə-bağırsaq problemlərinə, hətta xərçəng xəstəliyinə səbəb ola bilər".

Onun dediyinə görə, sağlamlığında heç bir problem olmayan, fəal həyat tərzi keçirən uşaq və yeniyetmənin arıqlığına görə narahat olmaq əbəsdir: "Belə olduqda çəki artırmaq üçün sadəcə qida rasionuna diqqət yetirmək lazımdır. Əsasən immunitetin bərpası baxımından gündə üç-dörd dəfə qidalanmaq, mövsümi meyvə-tərəvəzlər yemək, infeksiyalardan qorunmaq vacibdir. Bunun üçün ət məhsulları və C vitamini ilə zəngin sitrus meyvələrinə üstünlük verilməlidir. Vitamin, zülal və karbohidrat balansı normal çəkinin təminatıdır".

## İspan alimləri coğrafi təhlil üçün nanopeyklər yaradırlar

"Karten Space" şirkətini təmsil edən ispan alimləri Yerin səthində çox sürətlə coğrafi təhlil aparmağa imkan verən texnologiya işləyib hazırlayıblar. AZƏRTAC xəbər verir ki, mühəndislər Aynoa Sid del Valle və Maksimo Kalvo tərəfindən 2015-ci ilin mayında yaradılmış "Karten Space" adlı kiçik şirkətin saytında nanopeykdən çəkilmiş fotoşəkil yerləşdirilib. Alimlərin fikrincə, səmanın sərhədləri yoxdur. Onlar planetimizi kosmosdan müşahidə etmək üçün öz xidmətlərini, o cümlədən mədəni bitkilərin, meşə səthinin təsnif edilməsini, dəniz nəqliyyatı gəmilərinin və hətta avtomobillərin eyniləşdirilməsini təklif edirlər.

Təsviri təhlil etməyə və üzərində işləməyə, lazımi informasiyanı əldə etməyə imkan verən alqoritmlər "Karten Space" şirkətinin başlıca nailiyyətidir. Bu proses avtomatikdir. Fotoşəkildəki hər bir piksel insan gözünün görə bilmədiyi informasiya daşıyıcısıdır.

Şirkət ilk nanopeyk gələn il buraxmaq niyyətindədir. Nanopeyk NASA-nın bəyənəcəyi termoplastik materiallardan hazırlanacaq. "Karten Space" əməkdaşları tədqiqat işləri apararaq zondun optik avadanlığını və strukturunu işləyib hazırlayıblar. Növbəti addım altı kiçik peyki orbitə buraxmağa imkan verəcək maliyyələşdirmə mənbələri axtarmaq olacaq.


## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya müəllimliyi üzrə V kurs tələbəsi Bayramlı Gülü Nüsrət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.




## Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə olunur

Azərbaycanda idmançıların hüquqları hərtərəfli müdafiə olunur. Ölkəmizdə idmanda korrupsiya anlayışı da yoxdur. AZƏRTAC xəbər verir ki, bunu Avropa Şurasına üzv ölkələrin idmandan məsul nazirlərinin Tbilisidə keçirilən 15-ci konfransında iştirak edən gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində söyləyib. "Bununla belə, Azərbaycan tərəfi konfrans çərçivəsində bu mövzularda müzakirələrdə iştirak etməyə hazırdır. Düşünürəm ki, hər bir müzakirə idmanın gələcəyinə və bu sahədəki proseslərin inkişafına böyük təkan verir, - deyə A.Rəhimov vurğulayıb. Nazir bildirib ki, Avropa Şurasına üzv ölkələrin idmandan məsul nazirlərinin idmanda korrupsiya və danışılmış oyunlarla bağlı ilk konfransı on əvvəl Bakıda keçirilib: "Çox şadıq ki, Avropa Şurasının bu platforması məhz Bakıdan başlayıb. Azərbaycan Avropa Şurasının idmanla bağlı üç konvensiyasına qoşulub. Bunlardan da ən əsası EPAS-dır (Avropa Şurasının İdman üzrə Genişləndirilmiş Hissəvi Sazişi). Azərbaycan beş ölkə arasında bu sənədə qoşulan birinci ölkə olub".

## 2019 Formula 1 Azərbaycan Qran Prisinin bilet satışına start verilib




Bakı Şəhər Halqası Əməliyyat Şirkətində (BŞH) 2019-cu il Formula 1 Azərbaycan Qran Prisinin biletlərinin satışa çıxarılması ilə bağlı mətbuat konfransı keçirilib. SİA-nın məlumatına görə, konfransda BŞH-nin Kommersiya direktoru Bülent Özerdim və Marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai iştirak edib.

B.Özerdim bildirib ki, 2019-cu il Formula 1 Azərbaycan Qran Prisi üçün biletləri bu gündən etibarən bilet satış nöqtələrindən əldə etmək mümkündür: "Onlayn şəkildə bilet əldə etmək istəyənlər isə bu həftə ərzində artıq www.bakucitycircuit.com saytına müraciət edə bilərlər. Bundan əlavə, BŞH azarkeşlərə 4 günlük biletlərdə məhdud sayda nəzərdə tutulmuş 20%-lik endirim təklif edir. Bir yanvar 2019-cu il tarixinə qədər qüvvədə olacaq bu təklifdən sonra biletlərin satışı tam qiymət üzərindən davam etdiriləcək. Sırf yerli sakinlərə əlavə 25 %-lik endirim də tətbiq olunur. Yerli sakinlər kateqoriyasına şəxsiyyət vəsiqəsinə sahib hər bir Azərbaycan vətəndaşı və ölkədə müvəqqəti yaşama icazəsi olan hər bir xarici vətəndaş daxildir. Dörd günlük biletlər azarkeşlərə trekdə 3 gün ərzində davam edəcək yarışlarla yanaşı, həmin günlər ərzində trekdən kənarda baş tutacaq əyləncə tədbirlərinə qatılmaq və həmçinin 25 aprel tarixində, cümə axşamı günü keçiriləcək Pit Yolu yürüşündə iştirak etmək imkanı verir. Ötən üç il ərzində Bakıda keçirilmiş yarışlarda bu bənzərsiz təcrübəni yaşamış azarkeşlər F1 komandalarının qarajlarına səfər edərək mühəndis və mexaniklərin pilotları ən unudulmaz yarışlardan birinə necə hazırladıqlarının şahidi olmaq imkanını əldə ediblər".

## "Heç vaxt Messi ilə birlikdə oynamaram"



"Real"ın futbolçusu Luka Modriç "Barselona"nın hücumçusu Lionel Messi haqda açıqlama verib. Qol.az-ın "France Football"a istinadən yaydığı xəbərə görə, "Qızıl top"a namizəd olan xorvatiyalı yarımmüdafiəçi heç vaxt Messi ilə birlikdə oynamayacağını deyib: "Messi ilə rəqibik. Ona qarşı çox oynamışam, amma onunla birlikdə oynamamışam. Təbii ki o, tarixin ən yaxşı futbolçularından biridir. Amma heç vaxt Messi ilə birlikdə oynamaram". Qeyd edək ki, L.Messi də "Qızıl top"a namizəd futbolçular sırasındadır.

## "Atletiko"nun yarım əsrlik stadionu sökülür




"Atletiko"nun ötən ilin ortalarına qədər ev oyunlarını keçirdiyi "Visente Kalderon" stadionu bu ilin sonuna kimi söküləcək. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, 55 min tamaşaçı tutumuna malik arenada söküntü işləri artıq start götürüb. Stadionun sökülməsi 42,2 milyon avroya başa gələcək. Onun yerində yaşayış binaları tikiləcək və park salınacaq. Qeyd edək ki, "Atletiko" 51 il (1966-2017) ev oyunlarını "Visente Kalderon"da oynayıb. Madrid klubu 2017-2018 mövsümündən etibarən rəqiblərini "Vanda Metropolitano" stadionunda qəbul edir.

## "Neftçi" baxışa yeni futbolçu dəvət edib

"Neftçi" baxışa yeni futbolçu dəvət edib. Klubun rəsmi saytında yer alan xəbərə görə, bu, qvineyalı Mamadu Kanedir. 21 yaşlı Kane mərkəz yarımmüdafiəçisidir. Qvineyanın "Kaloum Star" klubunun üzvü olan futbolçu bu ölkənin 20 yaşadək milli komandasının formasını geyinib və dünya çempionatında iştirak edib. Qeyd edək ki, məşqçilər korpusu dünəndən məşqlərə qoşulan afrikalı futbolçu haqda müsbət qərar verərsə, onunla müqavilə bağlanacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500